“Şəffaf büdcə” kitabxanası

# BƏLƏDİYYƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAF PROQRAMI

*(metodiki tövsiyə)*

The social-economic development program of the municipality

“Ekspert” jurnalı

Bakı - 2005

**“Ekspert” iqtisad jurnalı**
Bakı şəhəri,
S.Rüstəmov küçəsi, ev 3, mən.3/6
Tel: (99412) 497 11 61
Faks: (99412) 498 44 31
E-mail: ekspert@azeronline.com
Website: www.ekspert.az

**İşçi qrupu:**

*Azər MEHTİYEV*
*Rövşən AĞAYEV*
*Samir ƏLİYEV*

Kitabda bələdiyyənin sosial-iqtisadi inkişaf proqramının hazırlanması üçün zəruri olan metodiki və təcrübi yanaşmalar təqdim olunub. Bərdə və Xanərəb bələdiyyələrinin konkret timsalında bələdiyyənin inkişaf proqramının nümunələri verilib.

Metodiki tövsiyə bələdiyyə rəhbəri və üzvləri, bələdiyyə qulluqçuları, yerli özünüidarə məsələləri üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatları və ekspertlər, bir sözlə bu mövzuya maraq göstərənlər üçün nəzərdə tutulub. Tövsiyə habelə hökumətin yerli özünüidarə qurumlarının fəaliyyətini tənzimləyən orqanları üçün faydalı ola bilər.

*Metodiki tövsiyə “Ekspert” jurnalının **Oxfam GB** beynəlxalq hümanitar təşkilatının maliyyə dəstəyi ilə həyata keçirdiyi **“Şəffaf büdcə”** layihəsi çərçivəsində hazırlanıb və çap olunub.*

*Kitabın məzmununa və buradakı məlumatlara görə Oxfam GB heç bir məsuliyyət daşımır.*

**Kitab pulsuz paylanır**

ISBN 9952-8031-9-2

© “Ekspert” iqtisad jurnalı

# Ön söz əvəzi

Son dövrlər "proqram", "kompleks sosial-iqtisadi inkişaf", "ekoloji şərait" və s. kimi anlayışlar fəal şəkildə iqtisadi leksikona daxil olub. Şübhəsiz, bu, ilk növbədə çoxlu sayda müxtəlif dövlət proqramlarının işlənməsi və qəbulu ilə bağlıdır. Son 5-6 ildə ölkədə sosial-iqtisadi inkişafın ayrı-ayrı istiqamətləri ilə bağlı bir neçə dövlət proqramı qəbul edilib.

Mülkiyyət formalarında baş verən dəyişikliklər, təsərrüfat subyektlərinin sürətlə artan müstəqilliyi, ən əsası cəmiyyətin idarə olunmasında dövlət idarəçiliyinin uzunmüddətli inhisarçılığına son qoyulması ilə bağlı iqtisadiyyatda yaranan əksmərkəzləşmənin dərinləşməsi bələdiyyələrin də bu prosesə cəlb olunması ilə nəticələndi. Belə ki, 1999-cu ildə Azərbaycanda ilk yerli özünüidarə institutunun yaranmasından sonra bələdiyyə qurumlarına yerli əhəmiyyətli sosial-iqtisadi inkişaf problemlərinin həlli və bu istiqamətdə uyğun proqramların hazırlanması sahəsində əlahiddə səlahiyyətlər verilib.

"Bələdiyyələrin statusu haqqında" qanuna əsasən, Azərbaycanda yerli özünüidarə orqanları müxtəlif xarakterli yerli inkişaf proqramları (yerli sosial müdafiə, sosial və iqtisadi inkişaf, ekoloji və s.) hazırlayıb reallaşdıra bilərlər.

Yerli sosial müdafiə proqramları bələdiyyələr tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir. Məsələn, bələdiyyələr öz ərazisində yaşayan, ölkənin ərazi bütövlüyü uğrunda şəhid və əlil olanların ailələrinə, valideynlərinə və ya uşaqlarına dövlət təminatından əlavə olaraq, mütəmadi və ya aylıq təqaüdlər, yardımlar və s. təyin edə bilər. Və yaxud, bələdiyyələr öz ərazisindəki ahıl və tənha qocalara dövri olaraq maddi və maliyyə yardımları göstərə bilər və s.

Yerli sosial inkişaf proqramlarında dövlətin həyata keçirdiyi sosial proqramlara əlavə olaraq və ya onlarda öz əksini tapmayan yerli əhəmiyyətli sosial-iqtisadi inkişaf məsələlərinin həlli də nəzərdə tutulur.

Belə proqramlar məktəbəqədər tərbiyə, təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının tikilməsi, saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili və inkişafı, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması, mərasim xidmətlərinin təşkili və qəbiristanlıqların qorunması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, habelə digər sosial infrastruktur obyektlərinin yaradılması və s. kimi məsələləri əhatə edə bilər.

Yerli ekoloji inkişaf proqramları dövlətin müvafiq proqramlarına əlavə olaraq və ya onlarda nəzərdə tutulmayan yerli əhəmiyyətli ekoloji inkişaf məsələlərinin həllinə yönəldilir. Bu proqramlarda bələdiyyə torpaqlarından və əmlakından səmərəli istifadə məsələləri, bələdiyyə müəssisələrinin yaradılması, bələdiyyə ərazisində sahibkarlığın inkişafı üçün əlavə tədbirlər, əhalinin iş yerləri ilə təmin edilməsi üçün kompleks tədbirlər və s. əks olunur.

Hələlik Azərbaycanda bələdiyyələrin inkişaf proqramları hazırlamaq təcrübəsi olduqca məhduddur və belə sənədi hazırlayan yerli özünüidarə orqanlarını bəlkə də barmaqla saymaq olar. Halbuki inkişaf proqramlarının hazırlanması, ərazinin və vətəndaşların problemlərinin prioritetləşdirilməsi hətta ən məhdud resurslar çərçivəsində sosial-iqtisadi inkişaf üçün potensial mənbələrin aşkarlanmasına təkan verir. Bu baxımdan "Ekspert" jurnalının həyata keçirdiyi "Şəffaf büdcə" layihəsi çərçivəsində hazırlanmış bu nəşrdə ölkə bələdiyyələrinin sosial-iqtisadi inkişaf proqramlarının hazırlanması sahəsində həm nəzəri-metodoloji, həm də praktiki bilik, bacarıq və vərdişlər əldə etməsi üçün xeyli material var. Ümid edirik ki, kitab Azərbaycan bələdiyyələrinin idarəetmə fəaliyyətini proqramlaşdırmaq istiqamətində atacağı addımlara az da olsa töhfə verəcək.

# BƏLƏDİYYƏLƏRİN İNKİŞAF PROQRAMLARI



## 1.1. Yerli sosial-iqtisadi inkişaf proqramları: onların mahiyyəti və əhəmiyyəti

Son illər bazar münasibətlərinin formalaşdırılması istiqamətində genişmiqyaslı islahatlar həyata keçirmiş keçid ölkələrində dövlətin lokal sosial-iqtisadi problemlərin ağırlıq mərkəzini tədricən yerli səviyyəyə keçirməsi prosesi baş verir. İqtisadiyyatda əksmərkəzləşmə kimi qəbul edilən bu prosesi inkişaf etmiş ölkələrin böyük əksəriyyəti onilliklər əvvəl başlayıb.

Əksmərkəzləşdirmə nəticəsində konkret ərazinin iqtisadi elitası formalaşır və onlar əhali ilə birlikdə yerli resursların və fərdi təşəbbüskarlığın gücü sayəsində həmin ərazinin sosial-iqtisadi inkişafının əsas məsuliyyətini öz üzərlərinə götürürlər. Bütün bu obyektiv proseslər nəticəsində isə bələdiyyə institutu aşağıdakı mühüm funksiyanı daşımalı olan müstəqil sosial-iqtisadi quruma çevrilir:

**Birincisi,** hər bir bələdiyyə öz ərazisində yaşayan əhalinin həyat fəaliyyətini təmin etmək üçün tədricən müəyyən səlahiyyətlər qazanır *(Azərbaycanda bu proses ləng getsə də, gec-tez onun tam başa çatdırılması qaçılmaz olacaq)*.

**İkincisi,** yeni iqtisadi münasibətlərin formalaşması, sahibkarlığın inkişafı və təsərrüfatlararası qarşılıqlı münasibətlərin keyfiyyətcə yeni formalarda meydana çıxması tarixi bir prosesdir və bələdiyyələr bu prosesləri idarə edən, onların dinamik inkişafına təkan verən subyektə çevrilir.

Bu funksiyaların mükəmməl həyata keçirilməsi bələdiyyələrdən strateji idarəetmənin mühüm elementi kimi öz fəaliyyətini proqramlaşdırmağı tələb edir. Belə fəaliyyət ərazinin sosial-iqtisadi inkişafı ilə bağlı kompleks məsələlərin resurs, zaman və başqa parametrləri qarşılıqlı əlaqələndirilməklə həllini nəzərdə tutur. Həmin əlaqələndirici rolunda isə yerli özünüidarə orqanlarının hazırladığı müxtəlif inkişaf proqramları çıxış edə bilər. Amma təcrübə göstərir ki, adətən hazırlanan inkişaf proqramları ayrı-ayrı sahələrin statistik mənzərəsini yaratmaqla böyük həcmli materiallardan ibarət olur, sənəddə mücərrəd və deklorativ öhdəliklərə geniş yer verilir. Bu baxımdan bələdiyyələr üçün samballı, icrası real görünən inkişaf proqramlarının hazırlanmasını təmin etmək üçün "proqram" anlayışının mahiyyətinə diqqət yetirilməsinə ehtiyac var.

**PROQRAM** - elə bir xüsusi idarəetmə alətidir ki, o, ənənəvi və standart üsulların belə sənədin predmeti kimi götürülən konkret problemi yaxud problemlər toplusunu həll etməyə imkan vermədiyi hallarda tətbiq edilir.

Bu yanaşmadan çıxış etsək hər bir bələdiyyənin hazırladığı inkişaf proqramları mühüm bir xarakterik cəhəti özündə əks elətdirməlidir: bu cür proqramlar yalnız o halda işlənir ki, konkret ərazidə bələdiyyənin səlahiyyətləri çərçivəsində həll olunmalı məsələlər müxtəlif subyektlərin (bələdiyyə, dövlət idarəetmə orqanları, ərazidə yaşayan əhali, ayrı-ayrı müəssisə və təşkilatlar) əlaqəli fəaliyyətini tələb edir. Bundan əlavə, inkişaf proqramlarının işlənməsinə həmçinin o zaman ehtiyac yaranır ki, yerli özünidarə qurumunun ərazinin inkişafı ilə əlaqəli qarşısına qoyduğu məqsədlərin reallaşdırılması üçün bir ildən daha çox müddət tələb edilir. Çünki

belə şəraitdə büdcənin cari vəzifələri ilə uzunmüddətli kompleks məsələlərin həllini uzlaşdırmaqda müəyyən problemlər yaranır.

Bələdiyyə idarəçiliyi nöqteyi-nəzərindən "proqram" anlayışını müxtəlif problemlər dəstinin müvafiq başlıqlar altında vahid sənəddə əks etdirilməsi kimi xarakterizə etmək olar.

Hər bir proqram aşağıdakı zəruri şərtlərə mütləq cavab verməlidir:

- *Proqramda əlaqəli və birbaşa fəaliyyəti nəzərdə tutulan bütün subyektlərin (idarəetmə orqanlarının) proqramın qarşısına qoyulan vəzifələrin reallaşdırılmasında rolu dəqiq göstərilməlidir;*
- *İştirakçı subyektlərin qarşılıqlı fəaliyyətinin mexanizmləri və formaları konkret əks etdirilməlidir;*
- *Proqramda nəzərdə tutulan tədbirlərin reallaşdırılma vaxtı, tələb olunan maliyyə vəsaitlərinin məbləği və maliyyələşmə mənbələri kifayət qədər aydın və səhih olmalıdır;*
- *Proqramın icrası üçün konkret məsuliyyət daşıyan subyekt(lər)in adı dəqiq müəyyən olunmalıdır;*
- *Sənədin reallaşdırılmasına görə məsuliyyət və nəticələrin qiymətləndirilməsi üçün göstəricilər müəyyən olunmalıdır.*

Bu şərtlərə cavab vermədən hazırlanan istənilən bələdiyyə inkişaf proqramları ya sonda tam reallaşdırılmamış qalacaq, ya da ən yaxşı halda, onun ayrı-ayrı elementləri icra olunacaq ki, bu isə "proqram" anlayışının təhrif edilməsi deməkdir.

Bundan əlavə, hər bir proqramın hazırlanması və uğurla reallaşdırılması əhalinin bu problemə psixoloji hazırlanmasını tələb edir. Amma bu hazırlıq işlənmə mərhələsində olan sənədlə bağlı ictimai rəyin yalnız mexaniki formalaşdırılmasını *(vətəndaşların*

*proqramla tanışlığının təmin olunması)* yox, orada ictimaiyyətin rəy və təkliflərini, eləcə də maraqlarını nəzərə almağı tələb edir.

**Yerli inkişaf proqramları 2 cür ola bilər:**

**1. Kompleks yerli inkişaf proqramları;**

**2. Məqsədli yerli inkişaf proqramları.**

**Kompleks inkişaf proqramları** *adətən ərazinin ümumi sosial-iqtisadi inkişafı ilə bağlı genişmiqyaslı tədbirlər planının işlənib hazırlanmasını nəzərdə tutur.* **Məqsədli proqramlar** *isə ünvanlı olur və konkret istiqamətə (yaxud qrupa) yönəlir.* Kompleks proqramlar daha populyardır və orada qarşıya qoyulan ümumi məqsədlər çərçivəsində ərazi üçün xarakterik olan problemlərin müəyyənləşdirilən vaxt çərçivəsində həll olunması nəzərdə tutulur. Məqsədli proqramlar isə, məsələn, bu cür ola bilər: **"Bərdənin uşaqları" bələdiyyə proqramı.** Bu proqram əlil, atılmış, yetim uşaqların inkişafı tədbirlərini əhatə edə bilər. Yaxud, **"Mingəçevir gəncləri" şəhər proqramı.** Bu proqram gənclərin məşğulluq imkanlarının artırılması, onların mənəvi, fiziki və mədəni inkişafına əlverişli şəraitin yaradılması, gənclər təşkilatlarının dəstəklənməsi və s. kimi məsələləri əhatə edə bilər.

## 1.2. Bələdiyyələr üçün sosial-iqtisadi inkişaf proqramlarının hazırlanması metodikası

Bələdiyyələrin sosial-iqtisadi inkişaf proqramları hazırlayıb həyata keçirməsi zərurəti ilk növbədə onunla şərtlənir ki, kənardan edilən istənilən yardım ərazinin inkişafını əngəlləyən problemləri sonadək həll etmək iqtidarında deyil. Çünki ərazidə mövcud olan bir çox resursları (münbit torpaq, işçi qüvvəsi, icma birli-

yi, su resursları, iqlim şəraiti və s.) kənardan idxal etmək mümkünsüzdür. Bələdiyyələrin timsalında hər bir inzibati-ərazi vahidinin iqtisadi muxtariyyətinin genişləndiyi şəraitdə bu resursların hərəkətə gətirilməsi, müxtəlif proqramlar çərçivəsində onların kənar resurslarla birləşdirilərək ərazinin inkişafına yönəldilməsi daha da aktuallaşır.

Halbuki hazırda ictimai rəyə belə bir fikir hakimdir ki, sosial-iqtisadi inkişaf üçün başlıca maneə resursların məhdudluğudur. Həmin yanaşma yerli özünüidarə sferasına da sirayət edib və bələdiyyələrin əksəriyyətində belə hesab edilir ki, hələlik bu qurumların başlıca funksiyası öz mövcudluğunu qoruyub-saxlamaq olmalıdır. Amma reallıq tamamilə fərqlidir: hər bir bələdiyyə məhdud resurslar çərçivəsində insanların artan ehtiyaclarını qarşılamaq üçün öz ərazilərinin sosial-iqtisadi inkişaf istiqamətlərini, bu inkişafın formalarını, hərəkətverici qüvvələrini üzə çıxarmağı bacarmalıdır. Bu, ilk növbədə müxtəlif inkişaf proqramlarının işlənməsini, həmin sənədlərdə ərazini inkişafdan saxlayan problemlərin, onların həlli yollarının əks etdirilməsini tələb edir. Çünki təcrübə göstərir ki, dilə gətirilməyən, həllinə səy göstərilməyən problem ictimai rəydə narahatlıq yaratmır. Deməli, istənilən problem ictimailəşirsə, onun həllindən yayınmaq səyləri xeyli tükənir. Deməli, inkişaf proqramlarının hazırlanması, həm də sağlam və yetkin idarəetmə qərarlarını qəbul etmək, onları reallaşdırmaq bacarığı deməkdir.

Hələlik Azərbaycanda çoxlu sayda bələdiyyənin ərazinin inkişafı, xüsusilə sosial-iqtisadi problemlərlə əlaqəli istər məqsədli, istərsə də kompleks proqramlar hazırlamaq və onları reallaşdırmaq sahəsində təcrübə qazanmasına ciddi ehtiyac var. "Proqramın strukturu necə olmalıdır?", "Ərazinin problemləri necə priori-

tetləşdirilməlidir?", "Proqramın nəticələri necə qiymətləndirilməlidir?", "Proqramın maliyyə ehtiyacları necə müəyyən olunmalıdır?", "Proqramın icrasına nəzarət necə qurulmalıdır?" və s. kimi suallarla bu tip sənədi hazırlamağa başlayan hər bir bələdiyyə rastlaşacaq. Odur ki, kompleks yerli sosial-iqtisadi inkişaf proqramlarının timsalında bu bölmədə əksini tapan tövsiyələr ölkəmizdə fəaliyyət göstərən bələdiyyələrə müəyyən töhfə verə bilər.

**Proqramın işlənməsinə hazırlıq.** İlk əvvəl yerli özünüidarə orqanında qərar çıxarmağa məsul şəxs proqramın hazırlanması ilə bağlı təklifi bələdiyyə iclasının müzakirəsinə çıxarır. Müzakirələrin yekunu olaraq bələdiyyə sədri həmin proqramın hazırlanması və həyata keçirilməsi ilə bağlı qərar imzalayır və hazırlıq işlərinə start verilir. Bu mərhələdə proqramın hazırlanmasına məsul şəxslər *(yaxud qurumlar)* aşağıdakıları diqqətdə saxlamalıdır:

**1.** Ərazinin inkişafı ilə bağlı hər bir kompleks proqram ərazinin sosial-iqtisadi inkişafına dair orta və uzunmüddətli tendensiyalar nəzərə alınmaqla işlənməli, bu zaman ərazinin iqtisadi bazasının yenidən qurulması *(yaxud inkişaf etdirilməsi)*, sosial şərait və onun dəyişilməsi meylləri dəqiq təhlil olunmalıdır;

**2.** Ərazinin əsas problemlərinin həllinə yönəlmiş məqsədli proqramlar uzunmüddətli proqnozlara əsaslanmalıdır;

**3.** Ərazinin illik sosial və iqtisadi inkişaf göstəricilərinin dinamikası büdcə ilə birlikdə hazırlanmalı, maliyyə və digər resurslarla düzgün əlaqələndirilməlidir.

**4.** Proqnoz məlumatlar ərazinin baş planı, bütövlükdə regionun layihə-planlaşdırma sənədləri əsasında hazırlanmalıdır.

**Sosial-iqtisadi inkişaf proqramlarının strukturuna qoyulan tipik tələblər.** Ərazinin sosial-iqtisadi inkişafına dair proqram aşağıdakı ardıcıllıqla işlənməlidir:

**1. Ərazinin sosial-iqtisadi və iqtisadi-coğrafi təsviri.** Bu, ərazinin baş planı və rəsmi statistik məlumatlar əsasında işlənməlidir. Orada əraziyə məxsus inkişaf tendensiyaları, ərazinin iqtisadi baxımdan cəlbediciliyini qabardan elementlər əks etdirilməlidir.

**2. Proqramın məqsədi.** Bu mövcud resurslardan istifadə imkanları nəzərə alınmaqla ərazidə yaşayan insanların üstün ehtiyacları əsasında müəyyən olunur.

**3. Ərazinin sosial-iqtisadi inkişafının perspektiv mərhələlərinin orta *(yaxud uzun)* müddətli konsepsiyasının işlənməsi.** Konsepsiya ərazinin inkişafının sosial və iqtisadi aspektlərini qarşılıqlı şəkildə əlaqələndirən sənəd rolunu oynamalıdır. Çünki əhalinin müxtəlif sosial proqramlarda ifadə olunmuş maraqları ilə dövlətin konkret regionda həyata keçirdiyi ayrı-ayrı proqramlarda (regional, məqsədli, kompleks sosial inkişaf proqramları) əks olunmuş maraqları ciddi şəkildə əlaqələndirilməlidir. Odur ki, adıçəkilən konsepsiya dövlətin iqtisadi mənafeləri ilə vətəndaşların sosial maraqlarını uzlaşdıran sənəd rolunu oynaya bilər. Bu bölmənin işlənməsi üçün informasiya rolunu ərazinin sosial-iqtisadi və iqtisadi-coğrafi təsviri hissəsində verilmiş sosial-iqtisadi göstəricilər oynayır. Həmin məlumatların təhlili əsasında bu bölmədə ərazinin perspektiv sosial-iqtisadi inkişafının ümumi mənzərəsi formalaşdırılır. Məhz yetkin şəkildə formalaşdırılmış konsepsiya sosial-iqtisadi inkişaf proqramlarının işlənməsi üçün əsaslar yaradır.

Sosial-iqtisadi sahədə mövcud olan problem və tendensiyaların qiymətləndirilməsi zamanı aşağıdakı istiqamətlər təhlil obyekti kimi seçilə bilər:

- *Ərazi haqda qısa tarixi məlumatlar*
- *Ərazinin iqtisadi potensialı*
- *Əhali, demoqrafik şərait*
- *Həyat səviyyəsi, əhalinin sosial müdafiəsi*
- *Sosial infrastrukturun vəziyyəti*
- *Əhalinin məşğulluğu*
- *Mühəndis infrastrukturun vəziyyəti (su, elektrik enerjisi, yollar, qaz xətləri və s.)*
- *Ərazinin ekoloji durumu*
- *Torpaq münasibətləri və torpaqlardan istifadə vəziyyəti*
- *Ərazinin maliyyə imkanlarının cari vəziyyəti*
- *Ərazinin sosial-iqtisadi problemlərinin həllinin mövcud təcrübəsinin təhlili*

***Qeyd:*** *Bu istiqamətlər təhlil olunarkən hər bir problemin yaranmasına səbəb olan bütün daxili və xarici amillər dəqiq göstərilməlidir.*

**4. Proqramın predmeti kimi seçiləcək sosial-iqtisadi problemlərin prioritetləşdirilməsi və həyata keçiriləcək tədbirlərin müəyyən olunması.** Bura nümunə olaraq aşağıdakı yarımbölmələr daxil edilə bilər:

- *İqtisadi şəraitin yaxşılaşdırılması tədbirləri*
- *Demoqrafik şəraitin yaxşılaşdırılması üzrə tədbirlər*
- *Əhalinin məşğulluq imkanlarının yaxşılaşdırılması tədbirləri*

- *Əhalinin sosial müdafiəsinin gücləndirilməsi üzrə tədbirlər*
- *Sosial infrastrukturun yenidən qurulması və inkişafı tədbirləri*
- *Ərazinin mühəndis-kommunikasiya sistemlərinin inkişafı üzrə tədbirlər*
- *Yuxarıdakı problemlərin həllilə bağlı nəzərdə tutulan bütün tədbirlərin reallaşdırılması üzrə maliyyə resurslarının, həmçinin maliyyələşdirmə mənbələrinin müəyyən olunması və hər bir tədbirin vaxt qrafikinin dəqiq göstərilməsi.*

***Qeyd:** Hər bir istiqamət çərçivəsində tədbirlərin həyata keçirilməsi üçün bələdiyyənin daxili imkanları ilə kənar imkanların sərhədləri dəqiq müəyyən olunmalıdır. Bundan əlavə, problemlər prioritetləşdirilərkən və onların həlli yolları sistemləşdirilərkən ictimai rəyin öyrənilməsi məqsədilə əhali arasında sosioloji sorğu da keçirilə bilər.*

**5. Sonda proqramda nəzərdə tutulan tədbirlərin reallaşdırılması üçün inzibati və təşkilati mexanizmlər, bütövlükdə proqramın informasiya və kadr təminatı öz əksini tapa bilər.** Proqramın reallaşdırılmasına ərazinin inkişafına təsir göstərən *(yaxud təsir göstərmək imkanı olan)* bütün subyektlər cəlb olunmalıdır. Daha doğrusu, bu tip proqramlar "ictimai müqavilə" xarakteri daşımalıdır. Çünki onların hər birinin maraq və mənafeləri, inkişaf məsələlərində oynaya biləcəyi rol tamamilə fərqlidir. Odur ki, adıçəkilən proqramlar "maraqların konsensusu" funksiyasını yerinə yetirməlidir. Ərazinin inkişafında maraqlı olan subyektlər kimi bunlar seçilir: yerli idarəetmə strukturlarının timsalında dövlət, yerli özünüidarəetmə qurumu və ərazi daxilindəki fəal qruplar (müəssisə və təşkilatlar, əhali və vətəndaş cəmiyyəti institutları).

## 1.3. Sosial-iqtisadi inkişafın proqramlaşdırılmasında strateji planlaşdırmanın rolu

Müasir iqtisadi nəzəriyyələrdə, həmçinin ayrı-ayrı ölkələrin təcrübələrində yerli sosial-iqtisadi inkişaf proqramlarının işlənməsi ilə bağlı çoxsaylı strategiyalara rast gəlmək olar. Belə mexanizmlərdən ən mühümü strateji planlaşdırma hesab olunur.

BMT-nin 1992-ci ildə Rio-de-Janeyroda yerli inkişafa dair strategiyasının işlənməsi ilə bağlı keçirdiyi konfrasda dünya ictimaiyyətinə bu istiqamətdə səylərini artırmaq tövsiyə olunmuşdu. Yekun sənəddə bildirilirdi ki, hər bir yerli hakimiyyət orqanı özünün perspektiv davamlı inkişafına dair strategiya işləməlidir.

**Ərazinin sosial-iqtisadi inkişafının strateji planlaşdırılması** - bu sistematik bir prosesdir və onun köməkliyi ilə hər bir bələdiyyə yerli resursların mövcud vəziyyətindən çıxış edərək özünün perspektivlərinin və qarşıya qoyduğu məqsədlərə çatmağın yollarının aydın mənzərəsini cızır. Həmin prosesə aşağıdakı elementlər daxildir:

- *icma daxilində qrup maraqlarının uzlaşdırılması;*
- *mövcud resursların inventarizasiyası, məhdudlaşdırıcı və əlverişli amillərin qiymətləndirilməsi;*
- *həyata keçirilməsi real görünən məqsəd və vəzifələrin müəyyən olunması;*
- *tədbirlər planının və müvafiq proqramların formalaşdırılması.*

İnkişaf etmiş ölkələrdə yerli əhəmiyyətli strateji planlaşdırma prosesi yerli hakimiyyət orqanlarının, dövlət və özəl sektoru təmsil edən işgüzar dairələrin və ictimai təşkilatların iştirakı və ortaq səyi ilə reallaşdırılır. Bir sözlə, inkişafın strateji planlaşdırılması bu pro-

sesdə maraqlı olan bütün tərəflərə - yerli hakimiyyət orqanlarına, sakinlərə, potensial investorlara, ali dövlət qurumlarına ərazinin perspektiv inkişafı ilə istiqamətləri dolğun şəkildə ünvanlayan mesajlar toplusu kimi qiymətləndirilə bilər. Unutmaq olmaz ki, bələdiyyə tərəfindən qəbul edilmiş, öz növbəsində "ictimai razılıq" statusu qazanmış inkişaf strategiyası olmadıqda bələdiyyə idarəçiliyinin keyfiyyəti aşağı düşür, o ciddi bələdiyyə imici formalaşdıra bilmir.

Hər bir ərazi müxtəlif parametrlər üzrə fərqli xarakteristikaya malik olduğundan strateji planlaşdırma proseduruna da vahid yanaşma tətbiq oluna bilməz. Parametrlərdəki fərqlilik isə özünü aşağıdakılarda göstərir:

- *iqtisadi fəallıq səviyyəsi;*
- *təbii resursların vəziyyəti və coğrafi xarakteristika;*
- *sakinlərin həyat fəaliyyətinin sosial təşkili formaları;*
- *siyasi şərait və yerli idarəetmə orqanlarının fəaliyyətinin effektivliyi.*

Beləliklə, inzibati-ərazi vahidləri sadalanan əlamətlərin müxtəlifliyinə uyğun olaraq özünəməxsus problemlərə malik ola bilər. Amma starteji planlaşdırmanın cavab verməli olduğu əsas suallar eynidir - sakinlərin həyat səviyyəsini necə yüksəltməli, ərazinin iqtisadi inkişafının qarşısını alan maneələri hansı üsullarla aradan qaldırmalı, perspektiv inkişafı hansı vasitələrlə təmin etməli? İndi bütün dünyada bu məqsədlərə çatmaq üçün yerli inkişafla bağlı strategiyanın təklif etdiyi metodlar da kifayət qədər oxşardır. Bura sakinlərin layiqli həyat səviyyəsini təmin edən infrastrukturun formalaşdırılması və davamlı inkişafı, istehsalın strukturunun

yenidən qurulması və əraziyə yeni texnologiyaların gətirilməsi, həmçinin yüksəkgəlirli iş yerlərinin yaradılması daxildir.

Bütün qeyd olunanlardan çıxış edərək yerli sosial-iqtisadi inkişafla bağlı strateji planlaşdırmanın mərhələlərini aşağıdakı ardıcıllıqla göstərmək olar:

**1. İnkişafın məqsədlərinin müəyyən olunması.** Sosial-iqtisadi inkişafın dəqiq müəyyən olunmuş məqsədləri perspektiv baxımından istənilən əraziyə cari problemini həll etmək üçün kənardan (dövlət büdcəsindən yaxud beynəlxalq təşkilatlardan) aldığı maliyyə yardımından daha çox fayda gətirə bilər.

Adətən, inkişafın ümumi məqsədləri *(buna missiya da deyilir)* ilə konkret məqsəd və vəzifələr bir-birindən fərqləndirilir. Ümumi məqsədlər konkret vaxt göstərilmədən dəqiq və qısa şəkildə ərazinin inkişafı üçün zəruri olan şəraiti xarakterizə etməlidir. Ümumi məqsədlər - bələdiyyənin ona məxsus ərazinin sosial-iqtisadi inkişafına dair arzuolunan nəticələrə dair ümumi konsepsiyasıdır. Bu məqsədlərin müəyyən olunmasına dövlət və bələdiyyə təmsilçiləri, sahibkarlar və əhali cəlb olunmalı, sonradan onlar vətəndaş cəmiyyəti institutları ilə ətraflı müzakirə olunmalıdır.

Təcrübə göstərir ki, sosial-iqtisadi inkişaf məqsədlərinin ierarxiyasının və inkişaf prioritetlərinin sıralanması həmişə mürəkkəblik yaradır. Səbəb aydındır - yerli resurslar kifayət qədər məhdud, yerli problemlər isə olduqca çoxdur. Öz növbəsində, priroritetləşməyə münasibətlə vətəndaşlar arasında konsensus yaratmaq çox çətindir. Əksəriyyət şəxsi maraqların təsiri altında ərazi üçün vacib olan ayrı-ayrı problemləri yanlış olaraq ya çox öndə görür, ya da tamam əksinə. Bütün bunlara baxmayaraq, məqsədlər real (əldə olunması mümkün), ölçülə bilən və konkret olmalıdır. Missi-

ya bu tələblərə cavab verməzsə, onun əldə olunması üçün sistemli tədbirlər də qurmaq mümkün olmaz.

Konkret məqsədlər isə detallı suallara cavab verməlidir:

- *Nə baş verməlidir?*
- *Hansı sahədə və nə vaxt baş verməlidir?*
- *Bu dəyişikliklərin kəmiyyət nəticələri nələrdən ibarət olmalıdır? və s.*

**2. Ərazinin inkişafı üçün xarici mühitin təhlili.** Coğrafi mövqeyindən asılı olmayaraq istənilən ərazinin inkişafı daima daxili və xarici amillərin təsirinə məruz qalır. Sosial-iqtisadi inkişafın daxili amilləri yerli resurslara əsaslanır və bura daxildir: işçi qüvvəsi, infrastruktur və kommunikasiyalar, istehsal gücləri və s.

Xarici amillərə isə ümumi iqtisadi şəraitlə bağlı faktorlar daxildir. Bura milli valyutanın məzənnəsindən, gömrük tariflərinin səviyyəsindən tutmuş dövlətin bələdiyyələrə maliyyə yardımı, ölkədə investisya mühiti, rayon və icra hakimiyyəti strukturlarının bələdiyyəyə münasibəti, bələdiyyənin rayon mərkəzindən uzaqlığı və s. kimi amillər daxil ola bilər. Strateji planlaşdırma həm şaquli əlaqələri (dövlət orqanları), həm üfüqi əlaqələri (qonşu bələdiyyələrlə) nəzərə almalıdır. Ərazinin sosial-iqtisadi inkşafı təhlil olunarkən bu inkişafa təsir göstərən əlverişli və neqativ amillər fərqləndirilir. Xarici sosial-iqtisadi mühitin ərazinin inkişafına verə biləcəyi töhfələrin və yarada biləcəyi təhlükələrin sistemli kəmiyyət və keyfiyyət təhlili aparılır. Bunun əsasında isə ərazinin inkişafına cəlbi mümkün olan xarici resursların (təbii, maliyyə, insan, institusional və s.) səviyyəsi qiymətləndirilir.

**3. Ərazinin zəif və güclü tərəflərinin müəyyənləşdirilməsi.** Bu mərhələdə ilk öncə əgər əvvəllər sosial-iqtisadi inkişaf proqra-

mı olubsa, onun nəticələri nəzərdən keçirilir, nailiyyət və uğursuzluqların səbəbi qiymətləndirilir. Bundan sonra ərazinin daxili üstünlükləri və zəif nöqtələri təhlil olunur. Bu mərhələdə ərazinin resurs təhlili olduqca əhəmiyyətlidir.

Sosial-iqtisadi inkişaf nöqteyi-nəzərindən ərazinin resurs təhlili aşağıdakıları əhatə etməlidir:

- *insan resursları (əhalinin cins-yaş strukturu, milli tərkibi, təbii artım səviyyəsi, miqrasiya, məşğul əhalinin peşə-ixtisas tərkibi, ümumi, orta və ali təhsillə əhatənin vəziyyəti, işsizlik səviyyəsi və onun dinamikası, əhalinin gəlirlərinin, o cümlədən əmək haqqının səviyyəsi, orta ömür uzunluğu və s.);*
- *təbii resurslar (torpaq resursları, istifadəyə yararlı torpaqlar, boş sahələr, torpağın qiyməti, faydalı qazıntılar və s.);*
- *iqtisadi resurslar (yerli iqtisadiyyatın sahə strukturu, üstün inkişafa əlverişli şərait olan istehsal sahələri, bələdiyyə xidmətlərinin tərkibi, mənzil fondunun həcmi və keyfiyyəti, nəqliyyat və rabitənin inkişaf vəziyyəti, digər kommunikasiyaların inkişaf səviyyəsi, mülkiyyət hüquqlarının vəziyyəti, ixrac imkanları və s.)*

Bundan sonra ərazidə sahibkarlıq mühitinin xarakteristikası təhlil olunur, sahibkarlığın inkişafında bələdiyyələrin potensialı müəyyən edilir.

**4. Mövcud üstünlüklərdən istifadə, yeni üstünlüklərin əldə olunması.** Stateji planlaşdırma ərazinin malik olduğu üstünlüklərdən (coğrafi mövqe, əsas bazarlara yaxınlıq, demoqrafik özünəməxsusluq, inkişaf etmiş infrastruktur) bəhrələnməyi mütləq nəzərdən keçirməlidir. Bundan əlavə, ərazini yaxın ətrafdakı əra-

zilərdən rəqabətə davamlılığa görə fərqləndirən amillər üzə çıxarılır, nəticədə həmin ərazinin reallaşdırılmamış imkanları qiymətləndirilir. Əsas səy inkişaf etmiş infrastrukturun yaranmasına gətirib çıxaracaq yeni yerli üstünlüklərin (biznesin təhlükəsizliyi, sərmayələr üçün əlverişli iqlimin yaradılması, ixtisaslı kadr bankının formalaşdırılması və s.) təmin olunmasına istiqamətlənməlidir.

Sosial-iqitsadi inkişafın strateji planlaşdırılmasının bu mərhələsi əraziyə üstünlük gətirən bütün amillərdən maksimum istifadə imkanlarının artırılması və inkişafı ləngidən məhdudlaşdırıcı faktorların zəiflədilməsi təblirlərinin işlənməsi ilə başa çatdırılır.

Beləliklə, ərazi inkişafının strateji planlaşdırması nəticəsində bələdiyyənin orta və uzunmüddətli sosial-iqtisadi inkişaf proqramlarının işlənməsi üçün yetkin baza tam formalaşır.

# BƏRDƏ ŞƏHƏR BƏLƏDİYYƏSİNİN

# SOSİAL-İQTİSADİ İNKİŞAF

# PROQRAMI

## (2006-2008-ci illər)

*(Proqram Bərdə bələdiyyəsinin*
*____ ____________2005-ci il tarixli*
*iclasının qərarı ilə təsdiq edilib*
*Protokol № ______)*

Son illər ölkəmizdə “Yoxsulluğun azaldılması və İqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)”, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər)” və başqa mühüm dövlət proqramları çərçivəsində regionlarda bələdiyyə ərazilərinin inkişafı və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilir. Bununla belə, ölkənin sosial-iqtisadi inkişafındakı mövcud reallıqlar bələdiyyələrin də əhalinin sosial problemlərinin həllində və bölgələrin inkişafında fəal iştirakını zəruri edir.

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununa və yerli özünüidarə orqanlarının fəaliyyətini tənzimləyən digər qanunvericilik aktlarına əsasən bələdiyyə orqanları yerli sosial müdafiə və sosial inkişaf, yerli iqtisadi inkişaf və yerli ekoloji proqramlar işləyib həyata keçirə bilərlər. Qanunvericiliyə uyğun olaraq, yerli sosial müdafiə proqramları bələdiyyələr tərəfindən müəyyən edilən vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edə, yerli sosial inkişaf proqramlarında dövlətin həyata keçirdiyi sosial proqramlara əlavə olaraq və ya onlarda öz əksini tapmayan yerli əhəmiyyətli sosial inkişaf məsələlərinin həlli nəzərdə tutula bilər. Yerli iqtisadi inkişaf proqramları isə dövlətin müvafiq proqramlarına əlavə olaraq və ya onlarda nəzərdə tutulmayan yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərinin həllinə yönəldilir.

Bu proqram Bərdə bələdiyyəsinin ayrı-ayrı sosial-iqtisadi problemlərinin həlli məqsədi ilə qanunvericiliyin müvafiq müddəaları nəzərə alınaraq hazırlanmışdır.

# BƏLƏDİYYƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAF PROQRAMININ

## P A S P O R T U

| Proqramın adı | Bərdə şəhər bələdiyyəsinin sosial-iqtisadi inkişaf proqramı |
|---|---|
| Proqramın işlənilməsi üçün əsas | “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu;<br>Bərdə şəhər bələdiyyəsinin “__” “_______” 2005-ci il tarixli iclasının qərarı (Protokol №__) |
| Proqramı hazırlayanlar | Bərdə bələdiyyəsinin icra aparatı<br>Büdcə və sosial məsələlər daimi komissiyası<br>“Şəffaf büdcə” layihəsinin ekspertləri |
| Proqramın informasiya təminatı | Bərdə rayon İcra Hakimiyyəti<br>Bərdə rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi<br>Bələdiyyənin məlumat bazası |
| Proqramın məqsəd və vəzifələri | • Bələdiyyənin ərazisində yaşayan sosial müdafiəyə ehtiyacı olan vətəndaşların sosial-iqtisadi cəhətdən əlavə dəstəklənməsini təmin etmək<br>• Bələdiyyə ərazisini abadlaşdırmaq<br>• Bələdiyyə ərazisində yaşayan vətəndaşların həyat şəraitini yaxşılaşdırmaq<br>• Əhaliyə göstərilən ictimai xidmətlərin keyfiyyətini yüksəltmək |
| Proqramın reallaşdırılması müddəti və mərhələləri | 2006-2008-ci illər |

| | |
|---|---|
| Proqramın əsas bölmələri | 1. Bələdiyyə haqqında ümumi məlumat<br>2. Bələdiyyə ərazisində yaşayan aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan əhalinin sosial müdafiəsi<br>3. Yolların tikintisi və təmiri, ərazinin abadlaşdırılması tədbirləri<br>4. Əhalinin enerji təchizatının yaxşılaşdırılması tədbirləri<br>5. Əhalinin su təchizatının yaxşılaşdırılması tədbirləri |
| Proqramın icraçıları | Bələdiyyənin icra aparatı<br>Müvafiq təşkilatlar |
| Proqramın maliyyələşdirilməsi mənbələri | • Bərdə bələdiyyəsinin büdcə vəsaitləri<br>• Dövlət büdcəsindən maliyyə yardımları<br>• Donor təşkilatlardan alınan qrantlar<br>• Əhalinin, habelə ayrı-ayrı hüquqi və fiziki şəxslərin könüllü ianələri |
| Proqramın reallaşdırılması ilə bağlı hesabatlılıq | Ayrı-ayrı istiqamətlər üzrə vəsaitlərin xərclənməsinə dair rüblük hesabatlar<br>Bütövlükdə proqramın icrasına dair illik hesabatlar |

## I. Bələdiyyə haqqında ümumi məlumat

Bərdə bələdiyyəsi Azərbaycan Respublikası Konstitusiyasına, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyələrə seçkilərin qaydaları haqqında" Azərbaycan Respublikası qanunlarına uyğun olaraq ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət kollegial orqan olub qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetməni həyata keçirmək məqsədilə yaradılmışdır. Özünün fəaliyyətində Azərbaycan Respublikasının

Konstitusiyasını, Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarını və bələdiyyənin Nizamnaməsini rəhbər tutur. Bələdiyyə hüquqi şəxsdir, onun öz möhürü, ştampı, bankda hesabı var.

Bərdə bələdiyyəsi 1999-cu ildə yaranmışdır. Bələdiyyə Bərdə şəhərini əhatə edən ərazi sərhədləri daxilində özünüidarəetmə formasında fəaliyyət göstərir.

Bərdə bələdiyyəsinin 15 üzvü var ki, onlardan 14 kişi, biri isə qadındır.

Bələdiyyə ərazisində 7500 ailədə 39.000 nəfər yaşayır. Bunların 20155 nəfəri qadın, 18845 nəfəri isə kişidir. Bundan başqa ərazidə 17.000 nəfər məcburi köçkün məskunlaşıb.

Bərdə bələdiyyəsi ərazisində 89 ha torpaq sahəsi vardır. Bunun:

- *24 hektarı ictimai xarakterli sahədir;*
- *65 hektarı isə həyətyanı sahəyə aiddir.*

Bərdə bələdiyyəsi perspektiv inkişaf üçün torpaq fonduna malik deyil.

Bələdiyyə ərazisində yaşayan əmək qabiliyyətli 22 min nəfər əhalinin əsas məşğuliyyəti sosial sfera, ticarət, kənd təsərrüfatı istehsalı və xidmətdir.

Bərdə şəhərində 8 ümumtəhsil, 3 musiqi, 1 uşaq şahmat məktəbi, 1 uşaq idman məktəbi, 1 internat, 1 peşə litseyi, 1 texnikum və 7 uşaq bağçası fəaliyyət göstərir. Həmin təhsil məktəblərində 8200 nəfərə yaxın şagird təhsil alır. Akademik Z.Əliyeva adına yeni tikilmiş məktəbdən başqa, digər məktəblər 50-30 il bundan əvvəl tikilib və təbii ki, müasir tələblərə cavab vermir. Məktəblər darısqaldır, sinif otaqları azdır, avadanlıqlar köhnədir, ona görə də

bütün məktəblər iki növbəlidir. Eyni zamanda həmin məktəblərdə 100-dən çox məcburi köçkün ailəsi yerləşdirilmişdir. Məktəblərin heç birinin qızdırma sistemi yoxdur. Məktəblərin maddi-texniki təminatı yaxşı vəziyyətdə deyil və onların yalnız 2-sində kompüter (8 ədəd) quraşdırılmışdır.

Bələdiyyə ərazisində yaşayan əhalinin ayrı-ayrı sosial təbəqələrinin və məhəllə komitələri üzvlərinin iştirakı ilə keçirilən çoxsaylı müzakirələr nəticəsində həllinə bələdiyyənin ilk növbədə diqqət yetirməsi məqsədəuyğun sayılan problemləri kimi aşağıdakılar müəyyən olunub:

- *Bələdiyyə ərazisində yaşayan aztəminatlı və sosial müdafiəyə ehtiyacı olanların əlavə sosial müdafiəsi*
- *Bələdiyyə ərazisində olan yolların vəziyyəti*
- *Əhalinin enerji təchizatının çox aşağı səviyyəsi*
- *Əhalinin içməli su ilə təchizatı sahəsində problemlər*
- *Təhsil və səhiyyə sahəsində olan problemlər*

Həmin problemlərin həlli bu proqramın predmeti kimi götürülüb.

## II. Bələdiyyə ərazisində yaşayan aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan əhalinin sosial müdafiəsi

**Problemin qoyuluşu.** Hazırda bələdiyyənin ərazisində məcburi köçkünlərlə birlikdə 56 min nəfər yaşayır. Onlardan 29 min nəfəri qadın, 27 min nəfəri kişi, o cümlədən 8900 nəfəri 16 yaşadək uşaqlardır.

**Ərazidə yaşayan vətəndaşlar arasında sosial müdafiəyə ehtiyacı olan sosial qruplar:**

- *Ərazidə 17 min nəfərədək qaçqın və məcburi köçkün məskunlaşıb;*

- *Ərazidə yaşayan pensiyaçıların sayı 7400 nəfər, o cümlədən 70 yaşdan yuxarı tənha ahıl vətəndaşlar - 870 nəfər;*
- *Əlillərin sayı - 1250 nəfər, o cümlədən:*
    - *Qarabağ müharibəsi və ölkənin konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olanlar - 154 nəfər,*
    - *Böyük Vətən müharibəsi əlilləri - 74 nəfər,*
    - *uşaqlıqdan əlillər - 107 nəfər;*
- *Müharibə veteranları - 1277 nəfər, o cümlədən:*
    - *Qarabağ müharibəsinin iştirakçıları - 1115 nəfər,*
    - *Böyük Vətən müharibəsi iştirakçıları - 162 nəfər.*
- *Əmək qabiliyyətli əhali arasında işsizlik səviyyəsi yüksəkdir. Lakin rəsmi işsizlik statusu olan şəxslərin sayı -1170 nəfərdir.*

Dövlətdən müxtəlif formada sosial müavinət və yardımlar, həmçinin pensiya alanların sayı 8300 nəfər təşkil edir. O cümlədən:

- *uşaq müavinətləri alanlar - 2400 nəfər,*
- *pensiya alanlar - 7400 nəfər,*
- *kommunal və nəqliyyat xidmətlərə görə aylıq müavinət alanlar - 1160 nəfərdir.*

Bununla belə, bu və ya digər formada dövlətdən sosial müavinət və yardım alanlar sosial müdafiəyə ciddi ehtiyacı olan bütün vətəndaşları tam əhatə eləmir. Eyni zamanda həmin ödənişlərin məbləği yoxsul vətəndaşların ehtiyaclarını tam ödəməyə təminat vermir. Araşdırmalar göstərir ki, Bərdə şəhərində bir nəfər əmək qabiliyyətli yaşında insanın aylıq minimal fizioloji təminatının ödənilməsi üçün orta hesabla 250 - 300 min manat tələb olunur.

Hazırda ödənilən pensiya və müavinətlərin səviyyəsi bununla müqayisədə xeyli aşağıdır. Son illər dövlət büdcəsindən bu məqsədlərə ayrılan vəsaitlərin məbləği ildən-ilə artsa da, hələlik bu qrupların ehtiyacını tam ödəmək iqtidarında deyil.

Belə şəraitdə bələdiyyənin daha az təminatlı təbəqələr üçün əlavə sosial təminatlar müəyyən etməsi zərurəti yaranır. Bu xüsusilə kimsəsiz ahıl vətəndaşlara, öhdəsində təhsil alan uşaqları olan əlillərə, çoxuşaqlı aztəminatlı ailələrə, yoxsul ailələrdən təhsil alan tələbələrə münasibətdə zəruridir.

**Problemin həlli istiqamətləri.** Dövlətin sosial ödənişlərinin aztəminatlı insanların minimal sosial ehtiyaclarını tam əhatə edə bilmədiyindən bələdiyyə bu kateqoriyadan olan daha yoxsul sakinlərini sosial cəhətdən dəstəkləməyi və onlara əlavə maddi yardım göstərməyi nəzərdə tutur. Bunun üçün bələdiyyə müxtəlif üsullarla, o cümlədən sorğu və fərdi söhbətlərin, habelə müşahidələrin aparılması, əmlak vəziyyətinin qiymətləndirilməsi, ailədə işləyənlərin sayı və s. kimi məlumatlar əsasında konkret şəxslərin (və ya qrupların) ehtiyaclılıq səviyyəsi qiymətləndiriləcək. Bunun əsasında hər ilin büdcə layihəsi işlənərkən sosial ehtiyaclar qrupunun kataloqu tərtib olunacaq. Proqramın hazırlanması ilə əlaqədar ilkin araşdırmalar zamanı tam dəqiqliklə də olmasa, belə bir qiymətləndirmə aparıldı. Qiymətləndirmələrə əsasən, bu proqram çərçivəsində 2006-2008-ci illərdə hər il 250-300 nəfər aztəminatlı vətəndaşa, xüsusilə ağır sosial durumda olan tənha qocalara, əlillərə (şəhid ailələrinə) və yoxsul ailələrdən olan tələbələrə müxtəlif formalarda (pul və natural) birdəfəlik və ya il boyu ödənilən ödənişlər nəzərdə tutulur. Bununla belə, növbəti illərdə büdcə layihəsinin işlənməsi zamanı bu cür qiymətləndirmələr daha da

dərinləşdiriləcək və bələdiyyə tərəfindən həyata keçirilən sosial müdafiə tədbirlərində maksimum ünvanlılığa nail olunacaq.

### Əlavə sosial müdafiəyə ehtiyacı olan aztəminatlı vətəndaşlara bələdiyyə vəsaiti hesabına həyata keçiriləcək yardımlar

| Sosial ehtiyac qrupları | İllər üzrə tələb olunan vəsait (min manatla) | | |
|---|---|---|---|
| | 2006 | 2007 | 2008 |
| Kimsəsiz ahıl qocalara yardım | 1000 | 2000 | 3000 |
| Yoxsul ailələrdən olan tələbələrə birdəfəlik yardım | 3000 | 3000 | 3000 |
| Çoxuşaqlı ailələrə sosial yardımlar | 10000 | 10000 | 10000 |
| Əlillər və digər kateqoriyalara maddi yardım | 8000 | 9000 | 10000 |
| **Cəmi** | **22000** | **24000** | **26000** |

## III. Yolların tikintisi və təmiri, ərazinin abadlaşdırılması tədbirləri

Şəhər təsərrüfatının əhali üçün mühüm əhəmiyyət kəsb edən və şəhərin abadlığı baxımından ilk növbədə diqqəti cəlb edən infrastruktur obyekti yollardır. Şəhərdaxili yolların yaxşı vəziyyətdə olması təkcə əhalinin əlverişli yaşayışının təmin edilməsi nöqteyi-nəzərdən deyil, eyni zamanda şəhərdə sahibkarlığın inkişafı və ərazinin sərmayə cəlbediciliyinin artırılması baxımından son dərəcə vacibdir. Bərdə şəhərinin yollarının təmir edilməsi sahəsində son illər müəyyən işlər görülsə də, hələlik şəhər yollarının əksəriyyətinin təmirə və yenidən qurulmaya ehtiyacı var. Təmiri

və yenidən qurulması zəruri olan yolların uzunluğunu və görüləsi işlərin məzmununu aşağıdakı cədvəldən görmək olar.

## Şəhərdaxili yollarda ehtiyac duyulan abadlaşdırma işləri

| Sıra sayı | Küçələrin və görüləcək işlərin adı | Ölçü vahidi | Yolun uzunluğu |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | R.Rza və M.Hüseynzadə küçələri (eni 6 m)<br>- örtüyün salınması<br>- səkilərin tikintisi | <br>metr<br>metr | <br>2250<br>4500 |
| 2. | M.F.Axundov küçəsi (eni 6 m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | <br>metr<br>metr | <br>1230<br>2460 |
| 3. | E.Əsədov və Şəhriyar küçələri (eni 8 m)<br>- asfalt örtüyün salınması | <br>metr | <br>420 |
| 4. | M.Ə.Rəsulzadə küçəsi (eni 8 m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | <br>metr<br>metr | <br>580<br>1160 |
| 5. | Füzuli küçəsi (eni 6-8 m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | <br>metr<br>metr | <br>1560<br>2800 |
| 6. | Vaqif küçəsi (eni 6 m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | <br>metr<br>metr | <br>2100<br>4200 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 7. | Şərq küçəsi (eni 6 m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | metr<br>metr | 910<br>1820 |
| 8. | Babək küçəsi (eni 6 m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | metr<br>metr | 980<br>1960 |
| 9. | A.Əhmədov küçəsi (eni 8m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | metr<br>metr | 520<br>1040 |
| 10. | Natəvan küçəsi (eni 8 m və 6 m)<br>- eni 8 m olan hissədə yeni asfalt örtüyünün salınması<br>- eni 6 m olan hissədə yol əsasının qoyulması və asvalt örtüyün salınması | metr<br>metr | 650<br>410 |
| 11. | Gəncə küçəsi (eni 8 m və 6 m)<br>- eni 8 m olan hissədə yeni asfalt örtüyünün salınması<br>- eni 6 m olan hissədə yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | metr<br>metr<br>metr | 230<br>850<br>1700 |
| 12. | S.Vurğun küçəsi (eni 8 m)<br>-asfalt örtüyünün qoyulması | metr | 980 |
| 13. | C.Məmmədquluzadə küçəsi (eni 6 m)<br>- asfalt örtüyünün qoyulması | metr | 620 |
| 14. | C.Cabbarlı küçəsi (eni 6 m)<br>- asfalt örtüyünün qoyulması<br>- səkilərin tikintisi | metr<br>metr | 1300<br>800 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 15. | Xəqani küçəsi (eni 6 m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | metr<br><br>metr | 1570<br><br>3140 |
| 16. | Təbriz küçəsi (dalanları ilə birlikdə, əsas hissə – eni 8m, dalanlar – eni 6 m)<br>- asfalt örtüyünün qoyulması (eni 8 m olan hissədə)<br>- dalanlarda yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | metr<br><br>metr<br>metr | 720<br><br>930<br>1860 |
| 17. | N.Nərimanov küçəsi (eni 8 m)<br>- asfalt örtüyünün salınması | metr | 280 |
| 18. | Sənaye küçəsi (eni 8 m)<br>- asfalt örtüyünün salınması | metr | 680 |
| 19. | Q.B.Zakir küçəsi (eni 6 m)<br>- asvalt örtüyünün salınması | metr | 950 |
| 20. | S.Zöhrabbəyov küçəsinin dalanları (Betonzavod qəsəbəsi və yeni məhəllələr ərazisində, eni 6 m)<br>- asfalt örtüyünün salınması | metr | 600 |
| 21. | Nizami küçəsinin dalanı (9 saylı DBMZ-nin qarşısından MMS-nin ikimərtəbəli yaşayış binasınadək, eni 6)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | metr<br>metr | 360<br>720 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 22. | Atatürk, Şah İsmayıl küçələri və onların dalanları (eni 6m)<br>- yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>- səkilərin tikintisi | metr<br>metr | 2600<br>3800 |
| 23. | Qarabağ qəsəbəsinin küçələri (eni 6 m)<br>-yol əsasının qoyulması və asfalt örtüyünün salınması<br>-səkilərin tikintisi | metr<br>metr | 640<br>1280 |
| **YEKUN:** | | | |
| 1. | Yol əsasının qoyulması<br>- 8 m enində<br>- 6 m enində | metr<br>metr | 1880<br>15610 |
| 2. | Asfalt örtüyünün salınması:<br>- 8 m enində<br>- 6 m enində | metr<br>metr | 5840<br>19080 |
| 3. | Şəkilərin tikintisi | metr | 43240 |

Şəhərdaxili yolların tikintisi və təmiri ilə əlaqədar bu işlərin Bərdə şəhər İcra Hakimiyyəti ilə birlikdə həyata keçirilməsi nəzərdə tutulur. Bunun üçün tələb olunan maliyyə vəsaitinin həcmi və mənbələri aşağıdakı kimi müəyyən edilib.

**Yolların tikintisi və təmiri, ərazinin abadlaşdırılması tədbirləri və bunun üçün illər üzrə tələb olunan vəsait**

*(min manat)*

| Tədbirin adı | 2006 | 2007 | 2008 | Maliyyə mənbəyi |
|---|---|---|---|---|
| 1. Yolun əsasının qoyulması - 1500 metr | 20000 | 30000 | 50000 | Dövlət büdcəsi, bələdiyyə büdcəsi və digər mənbələr |
| 2. Yolun asfaltlanması - 7800 metr | 150000 | 180000 | 200000 | |
| 3. Yolun kənarında səkinin salınması - 4700 metr | 80000 | 90000 | 100000 | |
| **Cəmi** | **250000** | **300000** | **350000** | |
| **YEKUN** | | | | **900000** |

Hər ilin büdcəsi işlənərkən büdcədə müvafiq dəqiqləşdirmələr aparılacaq və maliyyələşmə mənbələri konkretləşdiriləcək.

## IV. Əhalinin enerji təchizatının yaxşılaşdırılması tədbirləri

Hazırda şəhərin elektrik enerjisi ilə təminatı yarıtmaz vəziyyətdədir. Belə ki, əhaliyə sutka ərzində 10-12 saat elektrik enerjisi verilir, lakin bu da müxtəlif fasilələrlə həyata keçirilir. Bunun əsas səbəbi şəhərə lazım olandan az miqdarda enerjinin verilməsidir. Digər səbəb isə mövcud transformatorların (enerji tənzimləyici qurğuların) aşağı gücə malik olmasıdır. Hazırda şəhərdə əhalinin hər 1000 nəfərinə orta hesabla 1 transformator düşür. Yüksək gərginlikli elektrik xətlərinin uzunluğu 60 km-ə yaxın, elektrik xətlərinin ümumi uzunluğu isə 120 km-dən çoxdur. Hazırda 110

ədəd elektrik dayaqlarına, 3 ədəd 460 KVt -lıq elektrik transformatoruna və 6 ədəd 100 KVt -lıq transformatora ciddi ehtiyac var.

Bundan başqa, 2 kilometr uzunluğunda elektrik naqili təcili surətdə yeniləşməlidir. Enerji təchizatının belə vəziyyətdə olması şəhərdə su təchizatını da pozur. Belə ki, enerji fasilələrlə verildiyindən su anbarına kifayət qədər su ehtiyatı yığmaq mümkün olmur, su nasosları tez-tez sıradan çıxır və s.

Şəhərin enerji təminatı sahəsində mövcud problemlərdən biri də küçələrin işıqlandırılması ilə bağlıdır.

## Elektrik işıqlandırma quraşdırılması və təmiri işləri (transformatorların qoyulması ilə birlikdə)

| Sıra sayı | Yaşayış ərazilərinin və görüləcək işlərin adı | Ölçü vahidi | Miqdarı |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | Füzuli küçəsinin sonunadək təzə məhəllələrdə elektrik işıqlandırma xətlərinin qüraşdırılması | | |
| | - Elektrik transformatoru -160 KVt | Ədəd | 2 |
| | - Elektrik transformatoru- 250 KVt | Ədəd | 1 |
| | - Elektrik transformatoru- 400 KVt | Ədəd | 1 |
| | - Elektrik dayaqları -10 KVt | Ədəd | 22 |
| | - Elektrik dirəkləri - 0.4 KVt | Ədəd | 87 |
| 2. | C.Cabbarlı küçəsində elektrik işıqlandırma xəttinin təmiri | | |
| | - elektrik transformatoru - 160 KVt | Ədəd | 1 |
| | - elektrik naqilləri - 0.4 KVt | metr | 3000 |
| 3. | M.Hüseynzadə küçəsində (103 saylı həyətin yanında) elektrik transformatorunun (160 KVt) qoyulması | Ədəd | 1 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 4. | Nizami-151 ünvanda yerləşən 50 mənzilli bina üçün elektrik transformatorunun (160 KVt) qoyulması | Ədəd | 1 |

Şəhərin enerji təminatı sahəsində görüləcək işlərin və bunun üçün tələb olunan vəsaitin illər üzrə bölünməsi, tədbirlərin maliyyələşmə mənbələri aşağıdakı cədvəldə verilmişdir.

### Şəhərin enerji təminatı sahəsində görüləcək işlər, tələb olunan maliyyə vəsaiti və maliyyələşmə mənbələri

*(min manat)*

| Tədbirin adı | 2005 | 2006 | 2007 | Maliyyə mənbəyi |
|---|---|---|---|---|
| 3 ədəd 460 KVt-lıq elektrik tranformatorunun quraşdırılması (hər il 1 ədəd) | 75000 | 75000 | 75000 | Dövlət büdcəsi, bələdiyyə büdcəsi və digər mənbələr |
| 6 ədəd 100 KVt –lıq elektrik transformatoru (hər il 2 ədəd) | 30000 | 30000 | 30000 | |
| 90 ədəd elektrik dayaqları - 10 KVt | 20000 | 20000 | 20000 | |
| 20 ədəd elektrik dirəkləri - 0.4 KVt | 5000 | 5000 | 5000 | |
| 1000 metr elektrik naqili - 0.4 KVt | 5000 | 5000 | 5000 | |
| **Cəmi** | **135000** | **135000** | **135000** | |
| **YEKUN** | **405000** | | | |

Hər ilin büdcəsi işlənərkən büdcədə müvafiq dəqiqləşdirmələr aparılacaq və maliyyələşmə mənbələri konkretləşdiriləcək.

## V. Əhalininn su təchizatının yaxşılaşdırılması tədbirləri

Şəhərin su təchizatı ilə dövlətin tabeliyində olan Su Kəmərləri İdarəsi məşğul olur. Su kəmərlərinin ümumi uzunluğu 200 km-ə yaxındır. Demək olar ki, şəhərin heç bir yerində daimi su təchizatı yoxdur. Xüsusilə də 10 min nəfərə yaxın əhalinin yaşadığı ümumi yaşayış binalarında su təchizatının vəziyyəti acınacaqlıdır. Həmin binalarda su sutkada 2-3 saat verilir. Şəhəri su ilə təmin edən 15 artezian quyusunun ən yaxşı halda 8-i işləyir. Enerji fasilələrlə verildiyindən anbarlarda demək olar su ehtiyatı olmur. Hazırda şəhəri normal su ilə təmin etmək üçün kəmərlərin 10 km-lik hissəsində əsaslı təmir işləri aparılmasına, 5 artezian quyusunun qazılmasına və 8 su nasosunun təmirinə ehtiyac vardır.

Əhalininn su təchizatının yaxşılaşdırılması sahəsində həyata keçiriləcək tədbirlərin siyahısı aşağıdakı cədvəldə əks olunub. Hər ilin büdcəsi işlənərkən maliyyə mənbələri araşdırılmaqla görüləcək işlər və zəruri maliyyə vəsaitinin həcmi dəqiqləşdiriləcək.

## Şəhərin su təchizatının yaxşılaşdırılması tədbirləri

| S.s. | Küçələrin və görüləcək işlərin adı | Ölçü vahidi | Miqdarı |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1. | - C.Cabbarlı küçəsində su artezian quyusunun qazılması və avadanlıqların quraşdırılması<br>- elektrik transformatoru 100 kva<br>- elektrik dirəkləri 10 kv | Ədəd<br>Ədəd<br>Ədəd | 1<br>1<br>5 |
| 2. | - Nizami küçəsi 11/1 ünvandakı 50 mənzilli bina və 5 saylı uşaq bağçası üçün sub artezian quyusunun qazılması və avadanlıqların quraşdırılması<br>- elektrik transformatoru 100 kva<br>- elektrik dirəkləri 10 kv | Ədəd<br>Ədəd<br>Ədəd | 1<br>1<br>4 |
| 3. | - Nizami küçəsi 151 ünvandakı 50 mənzilli bina və 4 saylı uşaq bağçası üçün subartezian quyusunun qazılması və avadanlıqların quraşdırılması<br>- elektrik transformatoru 100 kva<br>- elektrik dirəkləri 10 kv | Ədəd<br>Ədəd<br>Ədəd | 1<br>1<br>3 |

# XANƏRƏB BƏLƏDİYYƏSİNİN SOSİAL-İQTİSADİ İNKİŞAF

# PROQRAMI

## (2006-2008-Cİ İLLƏR)

*Proqram Xanərəb bələdiyyəsinin*
*____ __________2005-ci il tarixli*
*iclasının qərarı ilə təsdiq edilib*
*Protokol № _____)*

Azərbaycan Respublikasında yerli özünüidarəetmə institutunun fəaliyyətini tənzimləyən qanunvericiliyə əsasən bələdiyyə orqanları əhalinin sosial müdafiəsi və ərazinin iqtisadi inkişafı sahəsində proqramlar hazırlayıb həyata keçirməyə səlahiyyətlidirlər. Hazırda dövlət idarəetmə orqanları bu sahədə kompleks tədbirlər həyata keçirsə də, ölkənin sosial-iqtisadi inkişafındakı mövcud reallıqlar bələdiyyələrin də əhalinin sosial problemlərinin həllində fəal iştirakını zəruri edir.

Xanərəb bələdiyyəsi 2006-2008-ci illər üzrə bu proqramı hazırlamaqla ərazinin uzun müddətdən bəri yığılıb qalmış problemlərini sistemləşdirmək, onları həll ardıcılığına görə prioritetləşdirmək, həmin problemlərin həlli üçün zəruri maliyyə ehtiyaclarını qiymətləndirmək, habelə bütün maraqlı subyektlərin aşkarlanmış icma ehtiyaclarına diqqətini cəlb etmək, onların aradan qaldırılmasında kənar dəstəklə yanaşı icma gücünün maksimum səfərbər edilməsinə nail olmaq məqsədi güdüb. Xanərəb bələdiyyəsi belə bir reallığı qəbul edərək bu proqramı hazırlayıb ki, mövcud problemləri hər kəsin anlaya və görə biləcəyi formada ortaya qoymadan, onlardan çıxış yollarını müzakirə edib ictimailəşdirmədən ərazini inkişafdan saxlayan  problem və icma ehtiyaclarından yaxa qurtarmaq mümkünsüzdür.

Hər kəsə məlum olan həqiqətdir ki, uzun illər insanlarımızın problemləri onların nə ehtiyacları, nə də təşəbbüskarlıqları öyrənilmədən "yuxarı"dan həll olunub, onların özləri isə bilavasitə problemlərin həll edildiyi mərkəzdən idarə edilib. İndi ölkəmizdə

yeni mülkiyyət formaları, yeni iqtisadi münasibətlər və bütün bunlara uyğun yeni idarəçilik psixologiyası formalaşıb. Belə şəraitdə hər bələdiyyə nəinki sakinlərin problemlərini onlarla birlikdə həll etməyə çalışmalıdır, eyni zamanda konkret strategiyalar və proqramlar vasitəsilə onların idarəçilikdə iştirakına nail olmalıdır.

## Proqramın ümumi xarakteristikası

**Əsas məqsəd:** Xanərəb bələdiyyəsinin ərazisində yaşayan əhalinin, o cümlədən sosial müdafiəyə ehtiyacı olan vətəndaşların (çoxuşaqlı ailələrin, yetim uşaqların, valideynini itirmiş uşaqların, tək ahıl vətəndaşların, kasıb ailədən olan tələbələrin, işsizlərin, ailə başçısını itirmiş dul qadınların və s.) sosial-iqtisadi cəhətdən dəstəklənməsini, ərazinin və icmanın inkişafı qarşısında buxova çevrilmiş ən vacib lokal iqtisadi problemlərin həllini təmin etməkdir.

**Proqramı hazırlayıb:** Xanərəb bələdiyyəsinin icra aparatı, büdcə və sosial məsələlər daimi komissiyası və "Şəffaf büdcə" layihəsinin ekspertləri.

**Proqramın maliyyələşmə mənbələri:** Xanərəb bələdiyyəsinin büdcə vəsaitləri, dövlət büdcəsindən verilən maliyyə yardımları, beynəlxalq təşkilatlardan alınan qrantlar, əhalidən və ayrı-ayır şəxslərdən könüllü ianələr.

**Proqramın informasiya təminatı:** Bərdə rayon icra hakimiyyətinin, statistika idarəsinin, əmək və əhalinin sosial müdafiəsi üzrə Bərdə rayon mərkəzinin informasiyaları, həmçinin Xanərəb bələdiyyəsinin informasiya bazasında olan məlumatlar, rayon yol-tikinti və su təsərrüfatı idarələri, regional elektrik enerjipaylayıcı şəbəkə və s.

**Proqramın reallaşdırılması ilə bağlı hesabatlılıq:** Ayrı-ayrı istiqamətlər üzrə vəsaitlərin xərclənməsinə dair rüblük hesabatlar, bütövlükdə proqramın icrasına dair illik hesabatlar təqdim olunacaq, həmin məlumatların rayon qəzetində dərci təmin olunacaq.

**Proqramın strukturu:**

**1-ci bölmə:** Bələdiyyə ərazisində yaşayan aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan əhalinin sosial müdafiəsi

**2-ci bölmə:** Yolların tikintisi və təmiri, ərazinin abadlaşdırılması tədbirləri

**3-cü bölmə:** Əhalinin enerji təchizatının yaxşılaşdırılması tədbirləri

**4-cü bölmə:** Əhalinin su təchizatının yaxşılaşdırılması tədbirləri

## I BÖLMƏ: Bələdiyyə ərazisində yaşayan aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan əhalinin sosial müdafiəsi

### 1.1. Mövcud problemlər

Hazırda Xanərəb bələdiyyəsinin ərazisində 2338 nəfər yaşayır. Onlardan 1240 nəfəri qadın, 1098 nəfəri kişi, o cümlədən 490 nəfəri 16 yaşınadək uşaqdır. Rəsmi işsizlik statusu olan şəxs yoxdur. Ərazidə yaşayan pensiyaçıların sayı 320 nəfərdir ki, onlardan da 2 nəfəri 70 yaşdan yuxarı tənha ahıl vətəndaşdır. Bələdiyyə ərazisində 54 nəfəri əlil, o cümlədən 2 nəfər Qarabağ müharibəsi və ölkənin konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olan şəxs, 2 nəfər Böyük Vətən müharibəsi əlili, 5 nəfər uşaqlıqdan əlil

yaşayır. Ərazidə həm də Qarabağ müharibəsinin iştirakçısı olan 7 nəfər, Böyük Vətən müharibəsi iştirakçısı olan 2 nəfər yaşayır. Ərazidə məskunlaşan qaçqın və məcburi köçkünlərin sayı 298 nəfərə yaxındır.

Bələdiyyə ərazisində yaşayan əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı - heyvandarlıq, maldarlıq və əkinçilikdir. Az sayda insanlar isə ticarət, ictimai iaşə və sosial sferada çalışır. Belə ki, ərazidəki əmək qabiliyyətli 880 nəfər əhalinin 805 nəfəri aqrar sahədə, 75 nəfəri xidmət sahələrində və sosial sferada işləyir.

Dövlətdən müxtəlif formada sosial müavinət və yardımlar, həmçinin pensiya alanların sayı 620 nəfərdir. Onlardan 300 nəfəri uşaq müavinətləri, 320 nəfəri isə pensiya alır. Bununla belə, bu və ya digər formada dövlətdən sosial yardımlar alan şəxslər sosial müdafiəyə ciddi ehtiyacı olan bütün kənd sakinlərini əhatə etmir, ya da belə yardımların məbləği yoxsul vətəndaşların ehtiyaclarını tam ödəməyə təminat vermir. Bundan əlavə, ərazidə yaşayan əhalinin sosial tərkibi, həmçinin məşğulluq strukturu ilə bağlı statistik məlumatlardan göründüyü kimi, təxminən hər ailədə orta hesabla bir əmək qabiliyyətli yaşında şəxsə 3 nəfər işləməyən insan düşür.

## 1.2. Çıxış yolları

Xanərəb bələdiyyəsinin ərazisində sosial öhdəçilik yükünün ağırlıq səviyyəsinin xeyli yüksək olduğu, habelə dövlətin sosial yardım siyasətinin aztəminatlı fərd və ailələri tam əhatə edə bilmədiyi şəraitdə bələdiyyənin bu kateqoriyadan olan yoxsul təbəqəni sosial cəhətdən dəstəkləməsi nəzərdə tutulur. Bunun üçün bələdiyyə müxtəlif üsullarla, o cümlədən sorğu və fərdi söhbətlər, aparılan müşahidələr, əmlak vəziyyəti (həyətyanı torpaq

sahələrinin, pay torpaqlarının həcmi və s.), ailədə aqrar sahədənkənar sferalarda işləyənlərin sayı və s. əsasında ev təsərrüfatlarının ehtiyaclılıq səviyyəsi qiymətləndiriləcək. Proqramın hazırlanması ilə əlaqədar ilkin araşdırmalar zamanı tam dəqiqliklə də olmasa, belə bir qiymətləndirmə aparıldı. Qiymətləndirmələrə əsasən, bu proqram çərçivəsində 2006-2008-ci illərdə hər il 20-dək ailə təsərrüfatının müxtəlif formada birdəfəlik, 10 nəfər xüsusilə ağır sosial durumda olan tənha qocaların, əlillərin və yoxsul ailələrdən olan tələbələrin bələdiyyənin sosial müdafiə tədbirləri ilə əhatə olunması nəzərdə tutulur. Bununla belə, növbəti illərdə büdcə layihəsinin işlənməsi zamanı bu cür qiymətləndirmələr daha da dərinləşdiriləcək və bələdiyyə tərəfindən həyata keçirilən sosial müdafiə tədbirlərində maksimum ünvanlılığa nail olunacaq.

Bunlardan əlavə, araşdırma və müşahidələr göstərir ki, sosial cəhətdən zəif olan bəzi insanların bu vəziyyətə düşməsi onların real imkanlar olduğu halda işgüzar olmamasından qaynaqlanır. Odur ki, bələdiyyə bu qəbildən olan insanlarla fərdi söhbətlər aparmaq, işgüzar fəaliyyətlə bağlı onları maarifləndirmək işini də aparmağı nəzərdə tutur.

### 1.3. Maliyyələşmə mənbələri

Qarşıdakı 3 il ərzində Xanərəb bələdiyyəsi ərazisində yaşayan yoxsul fərdlərin və ev təsərrüfatlarının sosial müdafiəsi məqsədilə yerli vergi və ödənişlər hesabına bələdiyyə büdcəsindən 11 milyon manat vəsait xərclənməsi proqnozlaşdırılır. Aşağıda konkret sosial qruplar üzrə zəruri sosial yardım xərclərinin matrisində Xanərəb bələdiyyəsinin həyata keçirəcəyi sosial müdafiə tədbirləri əks etdirilib.

## Əhalinin sosial müdafiəsi ilə bağlı tədbirlər planı və maliyyələşmə mənbələri

*(min manatla)*

| Tədbirin adı | İllər üzrə tələb olunan cəmi maliyyə vəsaiti və maliyyələşmə mənbələri | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2006 | | 2007 | | 2008 | |
| | Məbləğ | Maliyyələşmə mənbəyi | Məbləğ | Maliyyələşmə mənbəyi | Məbləğ | Maliyyələşmə mənbəyi |
| Kimsəsiz ahıl vətəndaşlara sosial yardımlar | 500 | Bələdiyyə büdcəsi | 1500 | Bələdiyyə büdcəsi | 2000 | Bələdiyyə büdcəsi |
| Çoxuşaqlı ailələrə sosial yardımlar | 1000 | Bələdiyyə büdcəsi | 1500 | Bələdiyyə büdcəsi | 2500 | Bələdiyyə büdcəsi |
| Yoxsul ailələrdə təhsil alan tələbələr | - | - | 1000 | Bələdiyyə büdcəsi | 1000 | Bələdiyyə büdcəsi |
| Cəmi | 1500 | - | 4000 | - | 5500 | Bələdiyyə büdcəsi |
| **Yekun** | | | | **11 000 manat** | | |

## II BÖLMƏ: Yolların tikintisi və təmiri, ərazinin abadlaşdırılması tədbirləri

### 2.1. Mövcud problemlər

Yol infrastrukturunun yaxşı vəziyyətdə olması təkcə əhalinin əlverişli yaşayışının, ərazidə məskunlaşmanın zəruri səviyyəsinin təmin olunması nöqteyi-nəzərdən deyil, eyni zamanda həmin ərazinin sərmayə cəlbediciliyinin artırılması baxımından son dərəcə vacibdir. Xanərəb kəndinin yollarının ümumi uzunluğu 15 kilometr təşkil edir. Öz növbəsində, yerli özünüidarə orqanlarının ərazi hüdudlarını və torpaq sahələrini tənzimləyən qüvvədə olan normativ-hüquqi aktlara əsasən  saxlanması və təmiri bilavasitə Xanərəb bələdiyyəsinin tabeçiliyində olan yolların ümumi uzunluğu 12  kilometr təşkil edir. Hazırda bütövlükdə bu yolların 5 kilometrinin təmirə, 7 kilometrinin isə yenidən çəkilməsinə ehtiyac var. Xüsusilə də çəkilməsi vacib olan  yollar avtomobillərin hərəkəti üçün yararsız vəziyyətə düşüb. Belə şərait bir müddət də davam etsə, ətraf ərazilərlə, ilk növbədə rayon mərkəzilə Xanərəb kəndinin avtomobil vasitəsilə əlaqəsi tamamilə çətinləşə bilər. Nəzərə almaq lazımdır ki, rayon mərkəzi ilə kənd arasında məsafə təxminən 40 kilometrdir. Bir tərəfdən məsafənin kifayət qədər çox olması, digər tərəfdən kəndi rayon mərkəzilə birləşdirən yolun avtomobillər üçün keçilməz hala düşməsi sosial şəraiti ciddi şəkildə ağırlaşdırır. Bu isə zərurət yarandığı halda ağır xəstələrin vaxtında xəstəxanaya çatdırılmaması, əsas etibarilə kənd təsərrüfatı istehsalı hesabına dolanan kənd sakinlərinin öz məhsullarını bazarlara çıxara bilməməsi, ərazidə yoxsulluğun xeyli yüksək olduğu bir şəraitdə nəqliyyat xidmətləri üçün tariflərin əsassız olaraq artırılması kimi problemlərdə özünü göstərir. Xüsusilə də nəzərə almaq lazımdır ki, Xanərəb kəndi telefonlaşdırılmayıb və ona görə də

kəndi ətraf ərazilərlə əlaqələndirən əsas kommunikasiya vasitəsi avtomobil nəqliyyatıdır.

## 2.2. Çıxış yolları

Son dövrlər tikinti materillarının son dərəcə bahalaşması müqabilində Xanərəb bələdiyyəsinin hazırki maliyyə imkanları ilə ərazidə yol tikintisi aparmasını mümkünsüz edib. Hesablamalar göstərir ki, ərazidə yolların tam işlək vəziyyətə gətirilməsi üçün bələdiyyənin heç bir illik büdcə vəsaitlərinin tamamilə ora yönəldilməsi də kifayət edər. Burada yeganə çıxış yolu bütün mümkün mənbələrdən - dövlətin maliyyə yardımlarından, əhalinin ianələrindən, qrantlardan və bələdiyyə büdcəsinin imkanlarından birgə istifadə etməkdir. Dövlət büdcəsindən zəruri maliyyə yardımı olarsa, vəsaitin çatışmayan hissəsini - istər donorlardan, istərsə əhalidən - təmin etməyi bələdiyyə öz üzərinə götürə bilər. Bununla bağlı, həm bəzi beynəlxalq humanitar təşkilatlar, həm də əhali ilə aparılan söhbətlərin müsbət nəticələri də var.

## 2.3. Maliyyələşmə mənbələri

Xanərəb bələdiyyəsi rayon ərazisində fəaliyyət göstərən yol-tikinti idarəsinin mütəxəssisləri ilə mövcud yolların tikintisi və təmiri ilə bağlı maliyyə ehtiyaclarını qiymətləndirib və məlum olub ki, Xanərəb kəndi ərazisində yol probleminin həlli üçün təxminən 33 milyon manat vəsait tələb olunur. Bu zaman bələdiyyənin mütəxəssisləri həmçinin, ətraf ərazilərdə aparılan oxşar yolların tikintisi ilə maraqlanıb, ayrı-ayrı ərazilər üzrə bir kilometrə çəkilən xərclərin müqayisəsi, tikinti bazarındakı cari qiymətlər nəzərə alınıb. Təmirə və yenidən çəkilməyə ehtiyacı olan yollar üçün tələb olunan maliyyə ehtiyacları üzrə qiymətləndirmələr aşağıdakı cədvəl-matrisdə əks olunub.

## Yolların tikintisi və təmiri üzrə tədbirlər, onların həyata keçirilməsi üçün zəruri maliyyə ehtiyacları

*(min manatla)*

| Tədbirin adı | Yolun uzunluğu, km-lə | İllər üzrə tələb olunan maliyyə vəsaiti və maliyyələşmə mənbələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 2006 | | | | | 2007 | |
| | | Məbləğ | Maliyyə mənbəyi üzrə bölgü | | | | | |
| | | Cəmi məbləğ | Dövlət | Qrant | Əhali | Bələdiyyə | Məbləğ | Maliyyə mənbəyi |
| Kəndin mərkəzi yolu | 10 km | 28 000 | 11000 | 10000 | 4000 | 3000 | - | |
| Təzə salınmış məhəllələrin yolları | 1,2 km | | - | | - | - | 3000 | Bələd. büdcəsi |
| Kəndin «Səfərli» hissəsinin yolları | 0,8 km | | | | | | 2000 | Bələd. büdcəsi |
| Cəmi | 12 km | 28 000 | | | | | | |
| Yekun | | | | 33 000 manat | | | | |

## III BÖLMƏ: Əhalinin enerji təchizatının yaxşılaşdırılması tədbirləri

### 3.1. Mövcud problemlər

Ümumilikdə əraziyə enerjipaylayıcı şəbəkə tərəfindən elektrik enerjisinin fasilələrlə verilməsi problemi mövcud olsa da, Xanərəb kəndinin enerji infrastrukturunun özünün də ciddi yenidənqurma və bərpa işlərinə ehtiyacı var. Yəni infrastrukturun hazırkı vəziyyəti fasilələrin aradan qaldırıldığı tədqirdə belə, ev təsərrüfatlarının elektik enerjisi ilə normal həcmdə təchizatına imkan vermir.

### 3.2. Çıxış yolları

Hazırda Xanərəb kəndi ərazisində 900 KVt gücü olan 9 ədəd transformator var. Bu o deməkdir ki, hazırkı şəraitdə mövcud transformatorların gücü əhalinin hər 100 nəfərinə təxminən 40 KVt enerji ötürməyə çatır. Hesablamalar göstərir ki, kənd əhalisinin elektrik enerjisi ilə normal təchizatı üçün əlavə 500 KVt tutumu olan enerjitənzimləyici qurğulara ehtiyac var. Bu isə öz növbəsində təxminən 1000 metr uzunluğunda yüksək gərginlikli elektrik xətlərinin, əlavə olaraq bir o qədər adi elektrik naqillərinin çəkilməsini, xeyli sayda elektrik dayaq və dirəklərinin quraşdırılmasını tələb edir. Bundan əlavə, istifadədə olan naqillərin köhnəlməsi elektik enerjisi istehlakında ciddi itkilərin yaranmasına səbəb olur. Aparılan qiymətləndirmələrə görə, naqil və dirəklərin nasaz vəziyyətdə olması üzündən Xanərəb kəndində enerji itkisi təxminən 15-20 faiz təşkil edir. Bu baxımdan orta hesabla 5000 metr uzunluğunda elektrik xətlərinin təmirə ehtiyacı var.

### 3.3. Maliyyələşmə mənbələri

Əhalinin enerji təchizatının Xanərəb kəndinin ərazisi ilə bilavasitə bağlı olan problemlərinin həlli məqsədilə ilk növbədə, onların hər biri üzrə zəruri ehtiyacların qiymətləndirilməsi lazımdır. Xanərəb bələdiyyəsi müvafiq təşkilatlar və mütəxəssislərlə məsləhətləşmələr əsasında bu işi həyata keçirib. Qarşıdakı 3 il ərzində əhalinin enerji təchizatının yaxşılaşdırılması üçün tələb olunan maliyyə vəsaitlərinin həcmi aşağıdakı matrisdə əks etdirilib.

## Xanərəb bələdiyyəsinin ərazisində elektrik enerjisi təminatı sahəsində problemlərin həlli üçün tələb olunan maliyyə vəsaitləri

*(min manatla)*

| Tədbirin adı | kəmiyyəti | İllər üzrə tələb olunan maliyyə vəsaiti və maliyyələşmə mənbələri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 2006 | | 2007 | | 2008 | |
| | | Məbləğ | Maliy. mənbəyi | Məbləğ | Maliy. mənbəyi | Məbləğ | Maliy. mənbəyi |
| 160 KVt-lıq elektrik transformatoru | 3 ədəd | 5000 | Qrant və ianələr | 5000 | Dövlət büdcəsi | 5000 | Bəl. büdcəsi və ianələr |
| 10 KVt-lıq elektrik dayaqlarının alınması və basdırılması | 90 ədəd | 4000 | Bəl. büdcəsi və dövlət büdcəsi | 4000 | Bəl. büdcəsi, dövlət büdcəsi | 2000 | Dövlət büdcəsi |
| 0,4 KVt-lıq elektrik dirəklərinin alınması və basdırılması | 20 ədəd | 1000 | Bəl. büdcəsi | 1000 | Bəl. büdcəsi | 1000 | Bəl. büdcəsi |
| Yüksək gərginlikli elektrik xəttinin alınması və çəkilişi | 1000 metr | 3000 | Qrant və ianələri | 3000 | Bəl. büdcəsi | 3000 | Dövlət büdcəsi. ianələr |
| Elektrik naqillərinin təmiri | 5000 metr | 2500 | Bəl. büdcəsi, dövlət büdcəsi, ianələr | 2000 | İanələr, bələd. büdcəsi | 2500 | Bəl. büdcəsi |
| Cəmi | - | 15500 | - | 15000 | - | 13500 | |
| **Yekun** | | | | **44 000** | | | |

# IV BÖLMƏ: Əhalinin su təchizatının yaxşılaşdırılması tədbirləri

## 4.1. Mövcud problemlər

Xanərəb kəndi ərazisində sovet dövründə əhalinin içməli su ilə təminatı son dərəcə bərbad vəziyyətdə olub və əhali bu məqsədlə əsasən kanal sularından istifadə edib. Xanərəb bələdiyyəsi yarandığı dövrdən indiyədək isə qrantlar və ianələr hesabına ərazidə içməli su üçün 7 artezian quyusu qazılıb. Hazırda həmin artezianlar vasitəsilə 540 ailə təsərrüfatı içməli su ilə təchiz edilir. Təxminən 100-dək ev təsərrüfatının içməli su təchizatında isə problemlər qalmaqdadır. Amma kənd ərazisində içməli su ilə müqayisədə suvarma suyu ilə təchizat sahəsində daha ciddi problemlər var. 70-dək ev təsərrüfatının təxminən 250 hektar özəlləşdirilmiş torpaq sahəsi suvarma suyunun olmaması üzündən becərmə dövriyyəsindən tam çıxarılıb. Bu isə o deməkdir ki, əhalinin yeganə gəlir mənbəyinin aqrar sahə olduğu bu ərazidə 70 ailə təsərrüfatını əhatə edən 300 nəfərdən artıq insan tamamilə gəlirsiz vəziyyətdə yaşayırlar. Həmin torpaqların kanal vasitəsilə suvarılması imkanı yoxdur və bunun üçün artezian quyularının qurulumasına ehtiyac var.

## 4.2. Çıxış yolları

Əhalinin həm suvarma, həm də içməli su ilə təchizatı böyük məbləğdə vəsait tələb edir və bu bələdiyyənin hazırkı maliyyə imkanlarına uyğun deyil. Bununla belə, bələdiyyə müvafiq layihələrin tərtib edilməsini, onun üçün donorların tapılmasını öz

üzərinə götürməyə, istənilən layihəyə işçi qüvvəsi və mümkün maliyyə vəsaitləri formasında töhfə verməyə hazırdır. Ona görə də əsas çıxış nöqtəsi Xanərəb kəndinin ərazisində süni suvarma üçün zəruri sayda artezianların qurulması sahəsində görüləcək işlərə müvafiq dövlət hakimiyyət orqanlarının zəruri texniki maliyyə dəstəyini əsirgəməməsidir.

## 4.3. Maliyyələşmə mənbələri

Aparılan hesablamalara görə, Xanərəb bələdiyyəsi ərazisindəki ev təsərrüfatlarının istər içməli, istərsə də suvarma suyuna tələbatını ödəmək üçün 3 artezian quyusunun qazılmasına ehtiyac var. Rayon su kəmərləri və artezian idarələrinin mütəxəssisləri ilə məsləhətləşmələr əsasında aparlan qiymətləndirmələr nəticəsində cari qiymətlərlə kənddə su təchizatının təşkili məsələlərinin həll üçün tələb olunan maliyyə ehtiyacları hesablanıb.

## Əhalinin içməli və suvarma suyu ilə təchizatının yaxşılaşdırılması tədbirləri və onların reallaşdırılması üzrə zəruri maliyyə ehtiyacları

*(min manatla)*

| Tədbirin adı | İllər üzrə tələb olunan maliyyə vəsaiti və maliyyələşmə mənbələri | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2006 | | 2007 | | 2008 | |
| | Məbləğ | Maliy. mənbəyi | Məbləğ | Maliy. mənbəyi | Məbləğ | Maliy. mənbəyi |
| İçməli su üçün subartezian - 1 ədəd | - | - | 50000 | Dövlət büdcəsi, qrantlar, ianələr | - | - |
| Su xətlərinin çəkilişi - 1300 metr | 4500 | Bələdiy. büdcəsi | - | - | - | - |
| Suvarma üçün subartezian - 2 ədəd | | | 50000 | Dövlət büdcəsi, qrantlar, ianələr, bələdiyyə büdcəsi | 50000 | Dövlət büdcəsi, qrantlar, ianələr, bələdiyyə büdcəsi |
| Cəmi | 4500 | | 100000 | - | 50000 | |
| **Yekun** | | | | | **154 500** | |

## Proqramın reallaşdırılması ilə əlaqədar 2006-2008-ci illərdə ümumi resurslara tələbat

| Resursun adı | Ölçü vahidi | Cəmi tələbat |
|---|---|---|
| **Əmək resursları** | **Nəfər** | **500** |
| **Maliyyə resursları** | **Manat** | **245 500 000** |
| O cümlədən, *Dövlət büdcəsi* | Manat | 60 000 000 |
| *Bələdiyyə büdcəsi* | Manat | 40 500 000 |
| İanələr | Manat | 30 000 000 |
| *Qrantlar* | Manat | 115 000 000 |

# Qrant almaq üçün donorlara necə müraciət etməli

Azərbaycanda bələdiyyələrin zəif maliyyə potensialına malik olması faktdır. Heç şübhəsiz bunun səbəbləri kifayət qədər çoxdur. Bura qanunvericiliklə yerli özünüidarə qurumlarına məhdud sayda gəlir mənbələrinin verilməsi, öz növbəsində həmin mənbələrin rentabellik səviyyəsinin son dərəcə aşağı olması, bələdiyyələrə həvalə olunmuş vergi və ödənişlərin tam həcmdə, vaxtlı-vaxtında yerli büdcələrə alınması üçün təkmil mexanizmlərin yoxluğu, yerli özünüidarə orqanlarının maliyyə bazarlarına çıxışı üçün zəruri şərtlərin olmaması kimi mühüm amillər daxildir. Belə şəraitdə bələdiyyələrin əvəzsiz maliyyə yardımlarına - qrantlara çıxış əldə etməsi bələdiyyə ərazilərinin sosial-iqtisadi inkişaf problemlərinin həllində ciddi resurs mənbəyinə çevrilə bilər. Bunun üçün bələdiyyələrdən tələb olunan ən vacib məsələ ayrı-ayrı problemləri layihələndirmək bacarığının olmasıdır.

Bələdiyyələr qrant almaq üçün xarici təşkilatların Azərbaycanda fəaliyyət göstərən nümayəndəliklərinə, səfirliklərə və yaxud birbaşa donor təşkilatların baş ofislərinə müraciət edə bilərlər. Bəzi donor təşkilatlara (məsələn, Açıq Cəmiyyət İnstitutu Yardım Fondu, Avrasiya Fondu) layihə təqdim etmək üçün onların tərtib etdiyi xüsusi blank formasının doldurulması tələb olunur. Ümumiyyətlə, donor təşkilatlara layihələrin təqdim edilməsi zamanı aşağıda hazırladığımız ümumi formadan istifadə etmək olar.

Yerli özünüidarə orqanlarına köməklik məqsədilə layihə yazılışı üçün nümunəvi standlartları təqdim edirik.

# LAYİHƏ/ƏRİZƏ FORMASI

Təşkilatın adı: ______________________________

Təşkilatın rəhbərinin
adı və vəzifəsi: ______________________________

Layihə rəhbərinin adı: ______________________________

Ünvan və poçt indeksi ______________________________

Telefon: (        ) ______________________________

Faks: (        ) ______________________________

E-mail: ______________________________

Layihənin adı: ______________________________

Ümumi büdcə: ______________________________

Tələb olunan məbləğ: ______________________________

Layihənin müddəti: ______________________________

Təsdiq edirəm ki, ərizədə təqdim olunan məlumat düzgündür və mən öz təşkilatım adından fəaliyyət göstərmək səlahiyyətinə malikəm.

**Layihənin rəhbərinin imzası** __________ **Tarix** ________

## 1. Problemin qoyuluşu

Bu bölmədə bələdiyyənin üzləşdiyi və əziyyət çəkdiyi problem, onun yaranma səbəbləri və problemin bələdiyyə üçün törətdiyi fəsadlar ətraflı təsvir olunur. Bu zaman təsvir elə aydın, dəqiq və anlaşıqlı olmalıdır ki, layihənin təqdim olunduğu donor problemin kifayət qədər ciddi olduğuna tam əmin olsun.

**Nümunə:**

*Kənddə (qəsəbədə) suvarma suyunun kəskin qıtlığı hökm sürür. Bu problemin yaranmasının başlıca səbəbi su artezianlarının çatmazlığıdır. Belə ki, kəndin (qəsəbənin) 250 ha əkin sahəsi digər ərazilərə nisbətən xeyli hündürlükdə yerləşdiyindən həmin sahələri kəndin ümumi suvarma şəbəkəsinə qoşmaq mümkün deyil. Bu vəziyyətdən yeganə çıxış yolu susuzluqdan əziyyət çəkən 250 ha sahədə 2 artezian quyusunun qazılmasıdır.*

*Problemin kənd (qəsəbə) üçün törətdiyi fəsadları təsəvvür etmək bir o qədər də çətin deyil. Həmin sahə 80 nəfər ailənin və ya 370 nəfərin pay torpağıdır. 250 ha torpağın suvarılmaması üzündən bu ailələr özlərinin yeganə dolanışıq mənbəyindən məhrum olublar.*

## 2. Layihənin məqsəd və vəzifələri

Təqdim olunan layihənin məqsədi sizin qarşıya qoyduğunuz problemin həllinə nail olmağınızdır. Layihənin vəzifəsi layihənin məqsədinə çatmağa yönəlmiş konkret tədbirləri nəzərdə tutur. Bu vəzifələr layihənin məqsədinə cavab verməli və ona əsaslanmalıdır. Layihənin Siz layihə çərçivəsində qarşınıza qoyduğunuz məqsədi aşağıdakı nümunədə olduğu kimi ifadə edə bilərsiniz.

**Nümunə:**

*2 artezian quyusunun qazılması ilə 250 ha sahəni tam əkin dövriyyəsinə cəlb etmək və bununla da 80 ailə təsərrüfatını qazanc mənbəyi və işlə təmin etmək mümkün olacaq. Lakin həmin torpaq sahələrinin sahiblərinin lazım olan 2 artezian quyusunun qazılması üçün maliyyə imkanları məhduddur və bunun üçün kənardan maliyyə mənbəyinin tapılmasına ehtiyac var. Belə mənbənin tapılacağı təqdirdə torpaq sahibləri tərəfindən layihəyə müəyyən töhfənin verilməsi də mümkündür. Bu cür töhfə layihə üzrə tərtib olunmuş smetanın dəyərinin 10-15% məbləğində vəsait qoyuluşu formasında həyata keçirilə bilər.*

## 3. Layihənin həyata keçirilməsi yolları və üsulları

Layihənin həyata keçirilməsi yolları və üsulları təfsilatı ilə əsaslandırılmalıdır. Bu əsaslandırma nə qədər dəqiqliklə göstərilsə bir o qədər donor təşkilatda az sual yaranacaq və onun uğurla tamamlanmasına şübhəsi qalmayacaq.

Bu bölmədə problemin həlli üçün layihənin müddətini əhatə edən konkret fəaliyyət və yaxud təqvim planı tərtib olunmalıdır. Fəaliyyət planında görüləcək işlərin ardıcıllığı, müddəti öz əksini tapır. Planda habelə aralıq hesabatın müddətinin də göstərilməsi məqsədəuyğundar.

Ümumi ifadələrlə təsvirdən sonra fəaliyyət planı qrafik təsvir formasında qoşma kimi əlavə olunur. Həmin əlavədə fəaliyyətlərin adı, hər bir fəaliyyət üçün nəzərdə tutulan icra müddəti, onun reallaşması üçün konkret vaxt intervalı və fəaliyyətin reallaşdırılması üçün məsul şəxs göstərilir.

**Nümunə:**

*Layihə çərçivəsində ilk tədbir artezian quyusunun qazılması üçün zəruri texnikanın və işçi heyətin formalaşdırılması olacaq. Quyuların qazılması üçün lazımi texniki avadanlıqlar rayon ərazisində fəaliyyət göstərən 1 saylı Tikinti-Quraşdırma İdarəsində var və adıçəkilən müəssisə son illər bir çox ərazilərdə bu işi uğurla həyata keçirib. Bundan sonra artezianların qazılması üçün dəvətli mütəxəssislərin köməyilə uyğun yer seçiləcək.*

**Həyata keçiriləcək fəaliyyətlərin təsviri**

| № | Fəaliyyətlər | İcra müddəti |
|---|---|---|
| 1. | Zəruri işçi heyətinin kompleksləşdirilməsi və müqavilə bağlanması | 1-ci ay ərzində |
| 2. | Artezianın qazılması üçün zəruri olan texnika və avadanlığın tapılması, alınması və ya icarə müqaviləsinin bağlanması | 1-ci ay ərzində |
| 3. | .... | |

## 4. Layihənin ictimai əlaqələr (PR) sahəsində vəzifələri

Proqramın strateji mövqeyini, layihənin məqsəd və əsas ideyasını ictimaiyyətə çatdırmaq və təbliğ etmək, müvafiq imici formalaşdırmaq məqsədilə layihəyə informasiyanın təqdimat forması, mətbuat konfrasları, əhali ilə görüşlər ictimai tədbirlərdə iştirak, KİV arasında yayılan press-relizlər əlavə olunmalıdır.

Layihənin qarşısına qoyulan missiyanın inkişaf etdirilməsinə yönəldilmiş fəaliyyətə başlamaq məqsədilə PR strateji planın araşdırılmasında faydalı olan suallara  cavab vermək zəruridir. Məsələn, PR-n məqsədi, fəaliyyətin yönəldiyi əsas kütlə, mesajlar və s..

## 5. Layihənin icraçıları

Bu hissədə layihə icraçılarının siyahısı, onların adı, vəzifələri, funksiyaları, onlar haqda şəxsi informasiya əks olunur.

## 6. Büdcə

Bu bölmədə layihənin gerçəkləşdirilməsi üçün tələb olunan maliyyə vəsaitlərinin məbləği göstərilir. Aşağıda göstərilən cədvəl formasına uyğun olaraq fəaliyyətlərin adı, görüləcək işin (xidməti), alınacaq mal materialın ölçü vahidi (kq, ton, metr, km, nəfər, ədəd və s.), miqdarı, bir vahidin qiyməti göstərilməklə ümumi məbləğ hesablanır. Büdcə tərtib edilərkən hər bir xərc maddələri detalları ilə açılmalı, onların dəyəri dəqiqliklə göstərilməlidir. Büdcədə xərc istiqamətləri aşağıdakı kimi təsnifləşdirilə bilər:

1. Əmək haqqı xərcləri (əmək haqqı, sosial sığorta, qonorar və s.)
2. Avadanlıq xərcləri (avadanlıqların alınması, icarəsi və s..)
3. Tədbir xərcləri (zalın icarəsi, paylama materialları və s.)
4. Nəşriyyat xərcləri (nəşrlərin tərtibatı, redaktəsi, çapı və s.)
5. Səfər xərci (ezamiyyə, dəvət olunan qonaqların xərcləri və s.)
6. Dəftərxana xərcləri (kağız, qələm, karandaş və s.)
7. Digər xərclər (ofisin icarəsi, telefon, poçt, bank və s. )

Təşkilat büdcəni tərtib edərkən ya vəsaitin hamısını, ya da bir hissəsini donor təşkilatdan tələb edə bilər. Əgər təşkilat layihənin xərclərinin bir hissəsini öz üzərinə götürürsə bunu büdcədən göstərməlidir.

**Nümunə**

**Avadanlıqlar xərcləri**

| Adı | Miq-dar | Ölçü vahidi | Qiy-məti | Donor-dan tələb olunan məbləğ | Təşki-latın qoyduğu vəsait |
|---|---|---|---|---|---|
| Artezian quyusunun qazılması üçün buldozerin icarəsi | 1 ədəd | 100 $ | 100 $ | 50 $ | 50 $ |
| Müxtəlif ölçülü boruların alınması (10$x) | 10 metr | 1 metr x 10 $ | 100 $ | 100 $ | - |
| ... | | | | | |
| **Cəmi:** | | | | **150 $** | **50 $** |

Layihədə bir yox bir neçə donor təşkilat iştirak edə bilər. Bu halda büdcədə hər donorun verəcəyi məbləğ ayrılıqda göstərilməlidir.

## 7. Layihənin nəticələrinin qiymətləndirilməsi

Burada layihənin reallaşdırılmasından birbaşa və dolayısı ilə bəhrələnəcək şəxslərin sayı ayrıca göstərilir. Bizim nümunəmizdə birbaşa faydalanacaq insanlar dedikdə artezianın qazılmasından sonra su problemi həll ediləcək insanların sayı, dolayı faydalanacaq insanlar dedikdə, məsələn, su problemindən əziyyət çəkən insanlara görə hər hansı formada qayğı ilə üzləşən bütün kənar adamlar daxil ola bilər.

**Nümunə:**

*Birbaşa:370 nəfər*
*Dolayı: 1000 nəfər*

Layihənin nəticələrinin qiymətləndirilməsi qaydası onun təsirliliyinin necə müəyyənləşdirilməsini nəzərdə tutur. Bura layihənin

kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsi, layihənin təsir coğrafiyasının təhlil olunması, layihə zamanı əldə edilən tədqiqatlara istinadların müəyyənləşməsi və s. daxildir. Məsələn, bizim nümunədə kəmiyyət baxımında qiymətləndirmə layihədən faydalanan insanların sayını, keyfiyyət baxımından qiymətləndirmə isə onun əkin sahələrinin su ilə təminatının yaxşılaşdırılmasını, onun insanların həyatına təsirini və s. özündə ehtiva edir.

## 8. Gözlənilən nəticələr

Bura layihə başa çatdıqdan sonra hansı nəticələrin gözlənildiyi qeyd olunur.

## 9. Layihənin davamlılığı

Layihə bitdikdən sonra onun uzun müddətli dövrdə təsirini saxlamaq üçün təşkilatın görəcəyi tədbirlər haqqında məlumatlar əksini tapmalıdır.

## 10. Əlavə materiallar

Ərizə formasında tələb olunan suallar cavablandırıldıqdan sonra bir sıra əlavə materialların (qoşmaların) sənədlərə daxil edilməsi məqsədəuyğundur:

- *Təşkilat haqqında məlumat*
- *Təşkilatın qeydiyyat sənədinin surəti*
- *Nizamnamənin surəti*
- *Zəmanət məktubunun əsli (əvvəllər işlədiyiniz donor təşkilatdan belə məktubun alınması işinizə fayda gətir bilər)*
- *Layihə icraçılarının tərcümeyi-halı (CV)*
- *Sair*

## Mündəricat

Ön söz əvəzi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

**I. Bələdiyyələrin inkişaf proqramları** . . . . . . . . . . . . . . 5

1.1 Yerli sosial-iqtisadi inkişaf proqramları:
onların mahiyyəti və əhəmiyyəti . . . . . . . . . . . . . . . . . . 6

1.2 Bələdiyyələr üçün sosial-iqtisadi inkişaf
proqramlarının hazırlanmasına metodiki yanaşma . . . . . . . 9

1.3 Sosial-iqtisadi inkişafın proqramlaşdırılmasında
strateji planlaşdırmanın rolu . . . . . . . . . . . . . . . . . . 15

**II. Azərbaycan bələdiyyələrinin
inkişaf proqramlarının hazırlanması
sahəsində təcrübəsi . . . . . . . . . . . . . . . . . . . . . 21**

2.1 Bərdə bələdiyyəsinin 2006-2008-ci illər
üzrə sosial-iqtisadi inkişaf proqramı . . . . . . . . . . . . . . 21

2.2 Xanərəb bələdiyyəsinin 2006-2008-ci illər
üzrə sosial-iqtisadi inkişaf proqramı . . . . . . . . . . . . . . 39

Qrant almaq üçün
donorlara necə müraciət etməli . . . . . . . . . . . . . . . . . 55

**Redaktor:** *Azər MEHTİYEV*
**Texniki redaktor:** *Tural MƏMMƏDOV*
**Korrektor:** *Sona MƏMMƏDOVA*

**Yığılmağa verilib 15.03.2005**
**Çapa hazırlanıb 22.04.2005**
**Format 60x90 1/8**
**Həcmi 8,0 şərti ç.v.**
**Kağız 100 qr. Ofset**
**Tiraj 1500**

**Kitab pulsuz paylanır**

**Kitab “CBS polygraphic production” mətbəəsində çap olunub.**